Xalqın qəzeti!

# Xalq qəzeti

№ 146 (30840) 18 iyul 2025-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## ANAMA Qarabağı “mina girovluğu”ndan xilas edir



səhifə ⇨ 8-9

# Şuşa Türk dünyasının dostluq qalasına çevrilib

## Azərbaycan Prezidenti İlham Əliyev ilə Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədovun Füzuliyə və Şuşaya səfəri

### Füzuli Beynəlxalq Hava Limanında qarşılanma






**Azərbaycanda səfərdə olan Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov iyulun 17-də Füzuli rayonuna gəlib.**

Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Qurbanqulu Berdiməhəmmədovu Azərbaycan Prezidenti İlham Əliyev qarşıladı.

Füzuli Beynəlxalq Hava Limanında Türkmənistan Xalq Məsləhətinin sədrinə işğaldan azad olunmuş ərazilərimizdə inşa edilən Füzuli, Zəngilan və Laçın Beynəlxalq Hava limanları haqqında məlumat verildi.

## Dövlətçiliyin qoşa zirvəsi



**2025-ci il Azərbaycan dövlətçiliyi üçün xüsusi rəmzi və strateji məna daşıyan bir mərhələdir. Bu il həm müstəqil respublikanın hüquqi əsaslarını müəyyən edən, 1995-ci ildə qəbul olunmuş Konstitusiyanın 30 illiyi, həm də 2020-ci ildə 44 günlük Vətən müharibəsi ilə bərpa olunmuş ərazi bütövlüyünün – yəni real və tam suverenliyin – beşinci ildönümüdür. Hər iki hadisə – biri hüquqi müstəvidə milli dövlətçiliyin əsasını qoyan, digəri isə siyasi və coğrafi reallıqda onun təsdiqini verən tarixlər – bir-birini tamamlayan və gücləndirən strateji mərhələlər kimi çıxış edir. Azərbaycan Respublikasının dövlətçilik tarixində 1995-ci ildə qəbul olunmuş Konstitusiya milli sabitlik və dövlətçilik ideologiyasının əsas sütunlarından biri olmuşdur.**

*(ardı 7-ci səhifədə)*

## “Zəngəzur dəhlizi təşviş yaratmamalıdır”

### Nikol Paşinyan cəmiyyətin bu mövzuya emosional reaksiyası ilə diplomatik reallıq arasında balans qurmağa çalışır




**“Əbu-Dabidə Azərbaycan Prezidenti İlham Əliyevlə görüşümüz müsbət məcrada keçdi”. Ermənistan baş naziri Nikol Paşinyan bunu mətbuat konfransında deyib. O, bu görüşün formatını və faydasını birmənalı şəkildə dəstəklədiyini və bu qayda ilə danışıqları davam etdirməyə hazır olduğunu açıqladı. “İlk dəfə idi ki, tərəflər görüşmək və danışıqlar aparmaq üçün əvvəlcədən razılığa gəldilər” – deyən Paşinyan qeyd etdi ki, ikitərəfli dialoqun səmərəli keçdiyini və müsbət nəticəyə nail ola bilinəcəyini vurğulasa da, detallara varmadı.**

İyulun 10-da Əbu-Dabidə tərəflərin müsbət münasibət bəslədiyi bir neçə ideyanın müzakirə olunduğunu, söhbətin dayanıqlı sülh razılaşmasından deyil, müəyyən qarşılıqlı anlaşmadan getdiyini etiraf edən Ermənistan baş naziri, bu məcrada ikitərəfli görüşlərin Əbu-Dabidə və ya başqa bir yerdə davam edəcəyinə ümid bəslədiyini jurnalisstlərin nəzərinə çatdırdı.

*(ardı 6-cı səhifədə)*

## Paşinyanın yarımçıq təəssüfü



səhifə ⇨ 6

## Azərbaycan mühacirət mətbuatı: qürbətdə istiqlal mübarizəsi



səhifə ⇨ 10

## Vaşinqtonun 50 günlük ticarət ultimatumu




səhifə ⇨ 11

## Azərbaycan Prezidenti və Türkmənistan Xalq Məsləhətinin sədri Füzuli şəhərinin dağıdılmış yerlərinə baxıblar



**İyulun 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov Füzuli şəhərinin dağıdılmış yerlərinə baxıblar.**

Qonaq şəhərin Baş planı ilə tanış olub.

Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov Qurbanqulu Berdiməhəmmədova 30 illik işğal dövründə Füzuli rayonunun ərazisində törədilən dağıntılar, vandalizm aktları, həmçinin şəhərin Baş planına uyğun olaraq həyata keçirilən və görüləcək işlər barədə məlumat verib.





Bildirilib ki, vaxtilə sıx məskunlaşmış və çiçəklənən Füzuli şəhəri erməni işğalı zamanı tamamilə talan edilərək viran qoyulub. Torpaqlarımız işğaldan azad ediləndən sonra qısa müddətdə Füzuli şəhərinin Baş planı hazırlanıb, Prezident İlham Əliyev tərəfindən təsdiqlənib və 2021-ci ildə ictimaiyyətə təqdim edilib. Böyük nəqliyyat-logistika potensialına malik olan Füzuli Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının əsas nəqliyyat arteriyalarının kəsişməsində yerləşir. Füzuli şəhərinin ümumi sahəsi təxminən 1942 hektardır. Baş plana əsasən, 2040-cı ilə qədər şəhərdə 50 min nəfərin yaşaması nəzərdə tutulur. Füzulidə İşğal və Zəfər muzeylərini əhatə edəcək Füzuli Memorial Kompleksi yaradılacaq, Kurmanqazı adına Yaradıcılıq Mərkəzi inşa olunub, şəhər xəstəxanası tikilir, şəhər parkı salınacaq, genişmiqyaslı abadlıq-quruculuq və yaşıllıq işləri həyata keçiriləcək. Baş plana əsasən, uşaq bağçaları və məktəblər kimi sosial infrastruktur obyektləri müvafiq olaraq 300 və 500 metrlik məsafədə yerləşəcək. Görüləcək işlər nəticəsində müasir standartlara və memarlıq özəlliklərinə uyğun inşa olunacaq Füzuli şəhəri azad edilmiş ərazilərdə iri şəhərlərdən birinə çevriləcək. Burada "Ağıllı şəhər" konsepsiyası tətbiq olunacaq. Füzuli şəhərinin 12 hektardan çox olan ərazini əhatə edəcək inzibati mərkəzi isə 3 hissəyə bölünəcək.

## Şuşada inşa edilmiş birinci yaşayış kompleksi ilə tanışlıq



**İyulun 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov Şuşa şəhərində inşa edilmiş birinci yaşayış kompleksində olublar.**

Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Aydın Kərimov dövlətimizin başçısına və Türkmənistan Xalq Məsləhətinin sədrinə kompleks barədə məlumat verdi.

İyirmi üç binadan ibarət yaşayış kompleksinin ümumi sahəsi 8 hektara yaxındır. Bu kompleksin təməlini 2021-ci ilin avqustunda Azərbaycan Prezidenti qoyub. Yaşayış kompleksində ümumilikdə 450 mənzil var. Onlardan 28-i birotaqlı, 195-i ikiotaqlı, 190-ı üçotaqlı, 30-u dördotaqlı, 7-si isə beşotaqlıdır. Burada keçmiş məcburi köçkünlər və Şuşa şəhərində müxtəlif dövlət qurumlarında çalışan şəxslər üçün xidməti mənzillər istifadəyə verilib. Bu yaşayış kompleksinə indiyədək 376 keçmiş məcburi köçkün ailəsi, ümumilikdə isə 1409 nəfər köçürülüb. Ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri həyata keçirilib.



## İlham Əliyev və Qurbanqulu Berdiməhəmmədov Daşaltı kəndində



**İyulun 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov Şuşa rayonunun Daşaltı kəndinin fonunda şəkil çəkdiriblər.**

## Liderlər Yeni Şuşa məscidində tikinti işlərinin gedişi ilə tanış olublar






**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov iyulun 17-də Yeni Şuşa məscidində tikinti işlərinin gedişi ilə tanış olublar.**

Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına və Türkmənistan Xalq Məsləhətinin sədrinə həyata keçirilən işlər haqqında məlumat verdi.

Bildirilib ki, təməli 2021-ci ildə dövlətimizin başçısı tərəfindən qoyulan və memarlıq həlli rəmzi xarakter daşıyan məscid tarixi şəhərdə modern memarlıq nümunəsi kimi seçiləcək. Belə ki, Prezident İlham Əliyevin tapşırığına əsasən məscidin forması 8 rəqəmini əks etdirəcək. Bu da öz növbəsində Şuşanın işğalçılardan azad olunduğu günü - Zəfər Gününü simvolizə edəcək. Məscidin iki minarəsi isə 11 rəqəmi formasında olacaq. Bu isə Şuşanın və Qarabağın işğaldan ilin on birinci ayında azad edilməsinin rəmzidir. Minarələrinin hündürlüyü 72 metr olacaq məscid Şuşanın yuxarı hissəsində inşa edilir. Bu ibadət ocağının binasının xarici səthi Şuşanın qədim məscidinin minarələrində istifadə edilən həndəsi naxışlarla bəzədiləcək. Hazırda işlərin 60 faizindən çoxu həyata keçirilib. Məscidin inşasının gələn il yekunlaşdırılması nəzərdə tutulub.



## İlham Əliyev və Qurbanqulu Berdiməhəmmədov Yaradıcılıq Mərkəzində “Heydər Əliyev və Qarabağ” sərgisində





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov iyulun 17-də Şuşada Heydər Əliyev Fondu tərəfindən bərpa edilən Yaradıcılıq Mərkəzində “Heydər Əliyev və Qarabağ” sərgisi ilə tanış olublar.**

Ölkə əhəmiyyətli memarlıq abidələri siyahısında olan bu binada vaxtilə Ağa Qəhrəman Mirsiyab oğlunun Karvansarası yerləşib. Heydər Əliyev Fondu tərəfindən 2022-ci ildən aparılan bərpa işləri zamanı bina ilkin vəziyyətinə qaytarılıb. Yaradıcılıq Mərkəzi 2023-cü il mayın 10-da istifadəyə verilib.

Sərgidə ulu öndər Heydər Əliyevin Qarabağın sosial, iqtisadi, siyasi və mədəni inkişafında xidmətlərini əks etdirən nadir fotoşəkillər, sənədlər və videomateriallar nümayiş olunur. Burada, eyni zamanda, Ümummilli liderin vaxtilə Qarabağa səfərlərinə, keçirdiyi müxtəlif görüş və tədbirlərə aid fotolar da yer alıb.

Qeyd edək ki, 1969-cu ildən Qarabağın və Şərqi Zəngəzurun tarixində böyük dönüş dövrü başladı. Dahi şəxsiyyət mürəkkəb tarixi şəraitdə belə bölgə həyatının bütün sahələrində geniş islahatlar aparmağa nail oldu. 1979-cu ildə Ağdam–Xankəndi dəmir yolunun istismara verilməsi Qarabağın digər rayonlarımızla təsərrüfat və iqtisadi cəhətdən daha sıx birləşdirilməsi baxımından Ulu öndərin strateji addımı olmaqla yanaşı, həm də böyük tarixi xidməti idi.

## Azərbaycan Prezidenti və Türkmənistan Xalq Məsləhətinin sədri Natəvanın, Bülbülün və Üzeyir Hacıbəylinin güllələnmiş heykəlləri qarşısında





**İyulun 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvanın, Bülbülün və Üzeyir Hacıbəylinin işğal dövründə ermənilər tərəfindən güllələnmiş heykəllərinə baxıblar.**

İşğal zamanı ermənilərin bu heykəlləri Ermənistana apararaq əritmək istədikləri barədə Qurbanqulu Berdiməhəmmədova məlumat verilib. Ulu öndər Heydər Əliyevin müdaxiləsi nəticəsində heykəllər Ermənistandan alınaraq Azərbaycana gətirilib və bir müddət Bakıda İncəsənət Muzeyinin həyətində saxlanılıb. Şuşa işğaldan azad olunduqdan sonra isə həmin heykəllər öz əvvəlki yerlərinə qaytarılıb.

# Azərbaycan Prezidenti və Türkmənistan Xalq Məsləhətinin sədri Bülbülün ev-muzeyində





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov iyulun 17-də Şuşada Bülbülün ev-muzeyində olublar.**

Milli Məclisin deputatı Polad Bülbüloğlu qonağa görkəmli musiqiçinin bu evdə anadan olduğu və uşaqlıq illərini burada keçirdiyi barədə məlumat verib. Ümummilli lider Heydər Əliyevin göstərişi ilə Şuşa Şəhər Xalq Deputatları Sovetinin İcraiyyə Komitəsinin 1982-ci ildə qəbul etdiyi qərarla Bülbülün doğulduğu və yaşadığı ev onun ev-muzeyinə çevrilib. 1982-1983-cü illərdə təmir olunan binada muzey ekspozisiyası qurulub və önündə inzibati bina inşa edilib. Ev-muzeyi 1992-ci ildə Birinci Qarabağ müharibəsi zamanı erməni vandalizminə məruz qalaraq fəaliyyətini dayandırıb.



Şuşanın azad olunmasından sonra digər tarixi-mədəni abidələrimiz kimi Bülbülün ev muzeyinin də bərpasına başlanılıb və 2021-ci ilin avqustunda bərpa işlərinin bitməsindən sonra muzeyin açılışı olub.



Ev-muzeyinin həyətində Bülbülün yeni büstü ucaldılıb. Şuşa şəhəri işğal altında olduğu dövrdə Bülbülün vandalizmə məruz qalmış büstü də erməni vəhşiliyini nümayiş etdirmək məqsədilə saxlanılıb.

## Azərbaycan Prezidenti və Türkmənistan Xalq Məsləhətinin sədri Yuxarı Gövhər Ağa məscidində





**İyulun 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov Şuşada Yuxarı Gövhər Ağa məscidini ziyarət ediblər.**

Qurbanqulu Berdiməhəmmədovun diqqətinə çatdırıldı ki, vaxtilə işğal edilmiş bütün ərazilərimizdə olduğu kimi, Şuşada da tarixi abidələr, o cümlədən məscidlər dağıdılıb, təhqir edilib. Şəhərin 17 məscidindən 16-sı işğalçılar tərəfindən dağıdılmışdı. Şuşa işğaldan azad edildikdən sonra Azərbaycan Prezidentinin tapşırığı ilə dərhal məscidlərin bərpa edilməsi işinə başlanılıb. Erməni vandalizminə məruz qalan tarixi-dini abidələrdən biri də Yuxarı Gövhər Ağa məscidi olub. Heydər Əliyev Fondu tərəfindən burada həyata keçirilmiş bərpa işlərinə 2021-ci ilin sonlarından başlanıb. 2023-cü il mayın 10-da isə Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvlərinin iştirakı ilə məscidin əsaslı yenidənqurma və bərpadan sonra açılışı olub.

Yuxarı Gövhər Ağa məscidi ölkə əhəmiyyətli tarixi-mədəniyyət abidələri siyahısındadır.

## İlham Əliyev və Qurbanqulu Berdiməhəmmədov Mehmandarovların malikanə kompleksində





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov iyulun 17-də Şuşada Mehmandarovların malikanə kompleksində olublar.**

Qonağa böyük və kiçik yaşayış binaları, ailə məscidi və bulaqdan ibarət kompleksin Mehmandarov nəslinin nümayəndələri tərəfindən XVIII əsrdə inşa olunduğu barədə məlumat verildi.

Bildirildi ki, Azərbaycanın zəngin memarlıq ənənələrinin nadir nümunələrindən biri olan Mehmandarovların malikanə kompleksi Heydər Əliyev Fondu tərəfindən bərpa olunub. 2021-ci ilin oktyabrından etibarən kompleksdə, ərazidəki ailə məscidi və bulaqda təmir-bərpa işləri aparılıb, bulağın damı əvvəlki vəziyyətinə gətirilib. Bu bulaq Prezident İlham Əliyev 2022-ci ilin sentyabrında kompleksdə bərpa işlərinin gedişi ilə tanış olarkən istifadəyə verilib. 2023-cü il mayın 9-da isə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bərpa işlərindən sonra Mehmandarovların malikanə kompleksinin açılışında iştirak ediblər. Bərpa işlərindən sonra malikanə kompleksində muzey ekspozisiyası da qurulub. “Qarabağ zadəganının evi” mövzusundakı ekspozisiya tərtib edilərkən XIX əsrin sonu-XX əsrin əvvəllərində Qarabağ zadəganının evinin interyeri, ziyalı şəxsin həyat tərzinin xüsusiyyətləri əsas götürülüb. Ekspozisiyanın tərtibatı zamanı 150-dən çox əntiq əşyadan istifadə edilib.

# Qurbanqulu Berdiməhəmmədova Cıdır düzündə “Dostluq” adlı Qarabağ atı hədiyyə edilib







**İyulun 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov Cıdır düzündə olublar.**

Burada Qarabağ atlarının təqdimatı keçirilib.

Prezident İlham Əliyev Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədova “Dostluq” adlı Qarabağ atını hədiyyə edib.



# Prezident İlham Əliyev və Qurbanqulu Berdiməhəmmədov Şuşada birgə nahar ediblər



**İyulun 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov Şuşada birgə nahar ediblər.**

Bununla da Türkmənistan Xalq Məsləhətinin sədrinin Azərbaycana səfəri başa çatıb.

***AZƏRTAC***

# Hesablama Palatası ASOSAI İdarə Heyətinin 62-ci toplantısına evsahibliyi edib



**İyulun 17-də Azərbaycan Respublikası Hesablama Palatasının evsahibliyi ilə Bakıda Ali Audit Orqanları Asiya Təşkilatının (ASOSAI) İdarə Heyətinin 62-ci toplantısı keçirilib.**

Tədbir ASOSAI sədrliyini təmsil edən Hindistanın Müfəttiş və Baş Auditorunun müavini Krishnan Sangaranın çıxışı ilə başlayıb.

Sonra ev sahibi – Azərbaycan Hesablama Palatasının sədri Vüqar Gülməmmədov çıxış edib. O bildirib ki, tədbirin Bakıda keçirilməsi Azərbaycan üçün qürurverici və məsuliyyətlidir. O, Hesablama Palatasının beynəlxalq təcrübənin öyrənilməsinə və tətbiqinə, bilik və informasiya mübadiləsinin gücləndirilməsinə, həmçinin regional əməkdaşlığın inkişafına xüsusi əhəmiyyət verdiyini vurğulayıb.

Tədbirdə İdarə Heyətinin 60 və 61-ci toplantılarının protokolları təsdiqlənib, təşkilatın 2024-cü il üzrə fəaliyyəti və maliyyə hesabatları, eləcə də 2026–2028-ci illəri əhatə edən büdcə planı nəzərdən keçirilib.

Toplantıda ASOSAI İdarə Heyətinin növbəti toplantısının 2026-cı ildə Astana şəhərində keçiriləcəyi ilə bağlı qərar qəbul edilib.

***XQ***



# Azərbaycan Prezidenti Administrasiyası rəhbərinin BƏƏ-nin Hesablama Qurumunun nümayəndə heyəti ilə görüşü



**İyulun 17-də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Samir Nuriyev Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Hesablama Qurumunun sədri Humeyd Obeyd Abuşibsin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan Respublikası və Birləşmiş Ərəb Əmirlikləri arasında strateji tərəfdaşlıq xarakteri daşıyan münasibətlərin cari vəziyyətindən məmnunluq ifadə olunub. Bu xüsusda, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə son səfərinin və hər iki ölkənin dövlət başçılarının iştirakı ilə imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişi"nin qarşılıqlı əlaqələrin daha da genişləndirilməsi üçün möhkəm zəmin yaratdığı xüsusilə vurğulanıb.

Son illər Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında iqtisadiyyat, nəqliyyat, enerji, mədəniyyət sahələrində və digər sahələrdə münasibətlərin davamlı və dinamik inkişaf etdiyi vurğulanıb. BƏƏ şirkətlərinin Azərbaycanda alternativ və bərpaolunan enerji mənbələrində istifadə sahəsində bir sıra uğurlu layihələr icra etdiyi bildirilib.

Görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə azad olunmuş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işlərinin sürətlə davam etdiyi diqqətə çatdırılıb. Görülmüş işlərin nəticəsi olaraq artıq keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıtmağa başladıqları bildirilib. Eyni zamanda, Birləşmiş Ərəb Əmirliklərinin Azərbaycanda həyata keçirilən humanitar minatəmizləmə fəaliyyətinə göstərdiyi maliyyə dəstəyinə görə BƏƏ-yə təşəkkür ifadə edilib.

Həmçinin Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının və Birləşmiş Ərəb Əmirliklərinin Hesablama Qurumunun fəaliyyəti, korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş işlər, institusional islahatlar, qanunvericilik bazasının təkmilləşdirilməsi, dövlət orqanlarının fəaliyyətində hesabatlılığın və məsuliyyətin artırılması istiqamətində görülən tədbirlər və həmin sahələr üzrə ikitərəfli və beynəlxalq əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə olunub.

Görüş zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

***XQ***

# XİN İraqa başsağlığı verdi

**Azərbaycan Xarici İşlər Nazirliyi İraqa başsağlığı verib.Bununla bağlı XİN-in "X" hesabında paylaşım edilib.**

"İraqın Kut şəhərindəki ticarət mərkəzində baş vermiş dəhşətli yanğın nəticəsində insan tələfatı bizi dərindən kədərləndirir. Həlak olanların ailələrinə və yaxınlarına, eləcə də dost İraq hökumətinə və xalqına dərin hüznlə başsağlığı veririk. Kədərlənənlərə səbr və güc, yaralananlara isə tezliklə sağalmalarını arzu edirik".

Xatırladaq ki, İraqın Vasit əyalətinin Kut şəhərində hipermarketdə güclü yanğın baş verib. Hadisə nəticəsində 50 nəfər həlak olub.

**Xuntaçıların məhkəməsi**

# Zərərçəkmişlərin məhkəmədə ifadə vermələri davam edir

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası iyulun 17-də davam etdirilib.**





Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə məhkəmə heyətini, dövlət ittihamını müdafiə edən prokurorları, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Zərərçəkmiş şəxs Ələddin Əkbərov 1990-cı ildə düşmən tərəfindən girov götürüldüyünü deyib. Girovluqda saxlanıldığı 2 ay müddətində betonun üstündə yatdığını bildirib. Dövlət ittihamçısı Vüsal Abdullayevin suallarına cavabında deyib ki, girovluqda dişləri qırılıb, başı yarılıb, ona digər xəsarətlər yetirilib. Girovluqda olduğu müddətdə çəkisi 87 kiloqramdan 45 kiloqrama düşüb.

Zərərçəkmiş şəxs İdris Məmmədov 1993-cü ilin fevral ayında döyüşlər zamanı əsir götürüldüyünü söyləyib. O, Azərbaycanın həmin vaxt Ermənistan silahlı qüvvələrinin işğalı altında olan suveren ərazilərində, o cümlədən evlərdən birinin zirzəmisində, Xankəndidə, Şuşa həbsxanasında saxlanıldığını deyib. Dövlət ittihamçısı Təranə Məmmədovanın suallarına cavabında bildirib ki, əsirlikdə saxlanılan zaman işgəncələrə məruz qalıb, dəyənəklə, yumruq və təpiklə döyülüb. Əsirlikdə olduğu üç ay müddətində ona az miqdarda çörək və su verilib.

Zərərçəkmiş Maarif Rüstəmov ifadəsində 2020-ci ildə baş vermiş 44 günlük müharibədə iştirakı zamanı ağır yaralandığını söyləyib. O, hadisənin sentyabrın 27-də Kəlbəcər rayonu istiqamətində, Murovdağda baş verdiyini bildirib. Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun sualına cavabında deyib ki, həmin vaxt özündən başqa daha 2 nəfər yaralanıb, 4 nəfər şəhid olub.

İlham Əsgərov ifadəsində deyib ki, 1993-cü ilin iyul ayında Ağdərə istiqamətində döyüşlərdə 8 nəfər azərbaycanlı hərbçi ilə birlikdə əsir götürülüb. Bildirib ki, onunla birlikdə əsir götürülmüş Azər adlı azərbaycanlı işgəncə və döyülmə nəticəsində ölüb. Beş ay sonra qaçaraq əsirlikdən azad olub. O, Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin sualına cavabında deyib ki, əsirlikdə olduğu müddətdə döyülüb və işgəncələrə məruz qalıb: "İndi də əlimdə sınıq, başımda çat izləri qalır".

Bəxtiyar Cəlilov ifadəsində bildirib ki, 2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsində Kəlbəcər rayonunda xidmətdə olarkən, oktyabrın 2-də Ermənistan silahlı qüvvələri tərəfindən snayper tüfəngindən açılmış atəş nəticəsində yaralanıb.

Süleyman Sofuyev 2016-cı ilin Aprel döyüşlərində əsgər kimi iştirak etdiyini və yaralandığını deyib. O, dövlət ittihamçısı Fuad Musayevin sualına cavabında həmin vaxt Ermənistan silahlı qüvvələrinin onlara qarşı hücuma keçdiyini, hadisənin düşmən qüvvələrindən müdafiə olunarkən baş verdiyini söyləyib.

Söhrab Əsgərov bildirib ki, 2023-cü il mayın 12-də Kəlbəcərdə Ermənistan silahlı qüvvələrinin təxribatı nəticəsində yaralanıb. Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin sualına cavabında deyib ki, hadisə zamanı əsgər Məhəmməd Qarayev şəhid olub, daha bir neçə hərbçi isə xəsarətlər alıb.

Teymur Xıdırov 2020-ci ildə baş vermiş 44 günlük müharibədə, noyabrın 3-də avtomobillə gedərkən Ermənistan silahlı qüvvələrinin atdığı mərminin partlaması nəticəsində yaralanıb. Həmin xəsarətlər nəticəsində səhhətində ciddi problem yaranmış zərərçəkmiş şəxs məhkəmədə çətinliklə ifadə verib.

"Mart ayının 20-də atamın, nənəmin və babamın meyitləri eyni yerdə tapıldı. Atam leytenant Firuz Kərimov çox dəhşətli işgəncələrlə qətlə yetirilmişdi. Hətta alnının dərisi soyulmuş vəziyyətdə idi. Nənəmin bir ayağı, bud hissəsindən aşağısı tamam yox idi", - deyə o əlavə edib.

Sadiq Xudayarov ifadəsində Xocalı soyqırımı zamanı - 1992-ci il fevralın 25-dən 26-na keçən gecə babasıgildə olduğunu bildirib. Onlar evlərini tərk etmək məcburiyyətində qalıb. Fevralın 27-də düşmən qüvvələri ilə rastlaşıblar. Həmin vaxt düşmənin açdığı atəşlər nəticəsində Mehdi adlı azərbaycanlı öldürülüb, S.Xudayarovun əmisi ayağından yaralanıb. Düşmən onları böyük dama yığıb. S.Xudaverdiyev bildirib ki, avtomatın qundağı ilə xəsarət yetirilməsi nəticəsində anası ikinci qrup əlil olub. Atası da işgəncələrə məruz qalıb, qabırğaları sındırılıb.

Fərzani Nəcəfzadə ifadəsində 2022-ci ilin avqust ayında Hadrutda düşmənin basdırdığı minanın partlaması nəticəsində xəsarətlər aldığını söyləyib.

Zamin Hətəmli ifadəsində göstərib ki, 2023-cü il dekabrın 7-də traktorla torpaq şumlayarkən Füzuli rayonunun işğaldan azad edilmiş Kürdlər kəndi ərazisində Ermənistan silahlı qüvvələri tərəfindən basdırılmış minanın partlaması nəticəsində xəsarət alıb, traktor isə yanaraq məhv olub.

Rəsul Cəfərov 1993-cü il yanvarın 4-də əsgər yoldaşı Afiq Qasımovla birlikdə Ermənistan silahlı qüvvələri tərəfindən əsir götürüldüyünü bildirib. Onlar əvvəlcə Ağdərədə, daha sonra Qırmızı Bazarda və Şuşada saxlanılıblar. Əsirlik müddətində ona və digər azərbaycanlılara işgəncələr verilib. Üzərilərinə qaynar su tökülüb, bədəni bıçaqla kəsilib. "İndi mənim bədənimdə salamat yer yoxdur", - deyə o bildirib. Qırmızı Bazarda fermada saxlanılarkən Artur adlı erməni Habil Bayramov adlı azərbaycanlının çənəsini qırıb. H.Bayramov yemək yeyə bilməməsi və aldığı xəsarətlər nəticəsində bir həftə sonra ölüb. Ermənistan silahlı qüvvələri hərbçilərinin göstərişi ilə azərbaycanlı əsir və girovlar H.Bayramovun meyitini fermanın yaxınlığında torpağı qazaraq basdırıblar. R.Cəfərov avqustun 24-də əsirlikdən azad edilib.

Zərərçəkənlər, həmçinin təqsirləndirilən şəxslərin, onların müdafiəçilərinin və özlərinin nümayəndələrinin suallarını da cavablandırıblar.

Məhkəmə prosesi iyulun 18-də davam etdiriləcək.

# Paşinyanın yarımçıq təəssüfü

## *Erməni baş nazir etiraf etmir, hücum edir*

**Ermənistanın baş naziri Nikol Paşinyan dünən keçirdiyi mətbuat konfransında bir çox məsələlərə toxundu, onlara aydınlıq gətirməyə çalışdı. Ümumən, Nikol hər şeydən danışdı, amma heç nə demədi. Ancaq Paşinyanın bu sayaq ritorikasına öyrəncəliyik. Ona görə də erməni hökumət rəhbərinin üzərində dayandığı konkret bir məqamdan söz açacağıq.**



Beləliklə, Paşinyan Azərbaycanın ərazi bütövlüyünü 2022-ci ildən əvvəl tanımalı olduğunu vurğuladı. O, bu fikri dilə gətirərkən, təəssüflənirmiş kimi görkəm alsa da, məsələnin mahiyyəti tamam başqadır. Nikolun etirafında bəlli məqsəd var. Məqsəd nədən ibarətdir, söhbətimiz bu mövzudadır.

*

Əlqərəz, Paşinyan qeyd edib ki, onun 2022-ci il oktyabrın 6-da Azərbaycanın ərazi bütövlüyünü tanımasına, o cümlədən Qarabağı Azərbaycanın tərkibində qəbul etməsinə dair ritorika yayılıb. Nikol, bu deyimlərin doğruluğunu təsdiqləyib. Lakin baş nazirin fikrincə, məsələnin obyektiv qiymətləndirilməli digər hissəsi var.

Deməli, Paşinyan Ermənistanın 2022-ci ilin sentyabr-oktyabr aylarında Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) müraciət ünvanladığını xatırladıb. O, müraciətin səbəbi barədə ətraflı danışmasa da, məlumdur ki, KTMT-yə səsləniş həmin ilin sentyabrında Azərbaycanla Ermənistan arasında yaşanmış eskalasiya ilə bağlı idi. Rəsmi İrəvan həmin vaxt iddia etmişdi ki, guya ölkəmiz Ermənistanın suveren ərazilərini ələ keçirib. Lakin KTMT-dən gələn cavab Paşinyan administrasiyasını qane etməmişdi. Cavab isə belə olmuşdu: Ermənistanla Azərbaycan arasında sərhədlər dəqiqləşmədiyindən, ikincinin birincinin ərazi bütövlüyünü pozduğunu müəyyənləşdirmək mümkünsüzdür.

*

Sən demə, Nikolun Azərbaycanın Qarabağ da daxil olmaqla ərazi bütövlüyünü tanımasına səbəb KTMT-nin verdiyi qeyri-qənaətbəxş cavab olubmuş. Birincisi, Paşinyan nəzərində tutduğu 2022-ci ilin Praqa sammiti zamanı ölkəmizin ərazi bütövlüyünü tanıdığını dilə gətirsə də, bu tanımanın Qarabağ məntiqi məchul qalmışdı. Erməni baş nazir Qarabağ da daxil olmaqla Azərbaycanın suverenliyini tanıdığını yalnız 2023-cü ilin yayında açıqlamışdı. İkincisi, Paşinyanın, belə demək mümkünsə, nə birinci, nə də ikinci tanıması əməli iş müstəvisinə keçməmişdi. Çünki Qarabağda qeyri-qanuni erməni hərbi birləşmələri qalmışdı. Ən əsası, bölgədəki separatçı rejim varlığını sürdürmüşdü.

Paşinyan, heç bir halda, deyə bilməz ki, rəsmi İrəvan həmin separatçı rejiminin mövcudluğunun davamında maraqlı deyildi. Maraqlı idi, ancaq öz baxışı çərçivəsində. Ermənistan rəhbərliyi Qarabağın erməni əhalisinə beynəlxalq təminat oyununa baş vurmuşdu. Bu, dolayısıyla ərazi iddiasını aktiv saxlamağa hesablanmışdı. Separatçı rejim isə məkrli məqsədin gerçəkləşdirilmə aləti kimi götürülmüşdü. Lakin alınmadı...

Digər tərəfdən, Paşinyan 2023-cü il sentyabrın əvvəlində yerli televiziyaya müsahibəsində bildirmişdi ki, Qarabağın özünün seçkili hakimiyyəti var. Ölkəmizin səbr kasasını daşdıran da elə bu fikir olmuşdu. Yəni Nikolun sözlərindən belə qənaət hasil olmuşdu ki, Azərbaycanın Qarabağı öz yurisdiksiyası altında görməsi mümkünsüzdür.

Ölkəmizin Silahlı Qüvvələri 2023-cü ilin sentyabrın 19-20-də mümkünsüz kimi görünəni gerçəyə çevirdi. Lokal xarakterli uğurlu antiterror tədbirləri ilə Paşinyanın düşüncəsində canlandırdığı "seçkili hakimiyyət" tarixin zibilliyinə göndərildi. Bundan sonra Qarabağın erməni əhalisi bölgəni tərk etdi. Rəsmi İrəvan isə onların təhlükəsiz qayıdışı üçün beynəxalq təminat məsələsini qondardı. Amma bu dəfə də alınmadı...

Bəli, Ermənistan rəhbərliyinin Qarabağın erməni varlığı naminə əlahiddəliyin vurğulanmasına, məqsəd etibarilə Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini şübhələndirməyə yönəlmiş cəhdləri iflasa uğradı və rəsmi İrəvan Bakı ilə real danışıqlar mərhələsinə start vermək məcburiyyətində qaldı. Sözügedən mərhələ 2024-cü ilin fevral-mart aylarından başladı və bir il çəkdi.

Əlbəttə, erməni hakim siyasi dairələri real danışıqlar zamanı da manipulyasiyalara baş vurdular. Çalışdılar ki, sülh müqaviləsi natamam şəkildə imzalansın. Elə şəkildə ki, onda gələcək avantürizm üçün tutacaq yer saxlanılsın. Lakin ölkəmiz yenə dirəniş və prinsipiallıq göstərdi. Ermənistana Azərbaycanın sülh müqaviləsi layihəsi xüsusundakı bütün şərtləri ilə razılaşmaqdan başqa yol qalmadı.

Hazırda rəsmi Bakının sülh müqaviləsinin imzalanması üçün irəli sürdüyü iki şərt var. Söhbət Ermənistan konstitusiyasının dəyişdirilməsindən, sənədin işğalçı xarakterli İstiqlaliyyət Bəyannaməsinə istinadının aradan qaldırılmasından və ATƏT-in Minsk qrupunun rəsmən ləğvindən gedir ki, Paşinyan administrasiyasının bunları yerinə yetirmək istəmədiyi və ya prosesi ləngitdiyi ortadadır.

İndi isə gələk bilavasitə Paşinyanın anti-Rusiya ritorikasına. Söhbət Qarabağın itirilməsinin günahkarı qismində Kremli görməkdən gedir. Axı Rusiya rəhbərliyinin, o cümlədən, Prezident Vladimir Putinin dəfələrlə dilə gətirdiyi fikirlərdən hasil olan qənaət budur ki, Qarabağın Ermənistan üçün itkisi 2022-ci ilin Praqa sammiti zamanı baş vermişdi. Paşinyan isə hazırkı bəyanatı ilə həmin vaxt Azərbaycanın ərazi bütövlüyünü tanımaq məcburiyyətinin yarandığını önə çəkir. Çünki Nikolun fikrincə, KTMT-nin timsalında Moskva İrəvanın müdafiəsinə qalxmaq istəmirdi.

Əlbəttə, indiyədək də Ermənistan rəhbərliyinin Qarabağın itirilməsinə görə Rusiyanı günahlandırmasına dair çoxsaylı nümunələr qeydə alınıb. Amma hesab edirik ki, Paşinyanın hazırkı yanaşması əvvəlki ritorikaya siyasi rəng qatır. Bu rəng İrəvanın Kremllə münasibətlərinin gərgin fazasını qoruyur.

***

Sonda erməni baş nazirin təəssüflənməsinə diqqət yetirək. Bir haşiyə çıxaq ki, Paşinyan sözügedən mətbuat konfransında Azərbaycanla ölkəsi arasında dərin etimadsızlığın mövcudluğunu da bildirdi. Doğrudur, Nikol durumun aradan qaldırılmasına dair kifayət qədər pozitiv mesajlar səsləndirdi. O, iyulun 10-da Əbu-Dabidə Azərbaycan Prezidenti İlham Əliyevlə görüşünü xatırlatdı, belə təmasların köməyi ilə qarşılıqlı inam yaratmağın mümkünlüyünü vurğuladı.

Deməli, ümumiləşdirmə apararaq, Paşinyanın 2022-ci ildən əvvəl Qarabağ da daxil Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanımalı olduğunu bildirməsindəki və bunu etməməsindən təəssüflənməsindəki səmimiyyət payına diqqət yetirməliyik. Əlbəttə ki, bəzi suallarla. Məsələn, 2022-ci ildən əvvəl deyərkən Nikol hansı ili nəzərdə tuturdu? Bəlkə 2019-cu ildə Xankəndidə verdiyi "Qarabağ Ermənistandır nöqtə" bəyanatının yanlışlığını bildirmək istəyirdi? Xeyr, erməni baş nazirin anti-KTMT xətti ilə anti-Rusiya ovqatına köklənməsi belə düşünməyə əsas vermir. Deməli, Paşinyanın təəssüflənməsində səmimiyyət çatmır. Nəzərə alaq ki, Nikolun haqqında söz açdığı inam və etimad səmimiyyətdən, səmimi yanaşmadan qaynaqlanır. Təəssüf ki, bunu görmürük. Nə bilmək olar, bəlkə Paşinyan ancaq yarımçıq təəssüflənməyi bacarır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# "Zəngəzur dəhlizi təşviş yaratmamalıdır"

**(əvvəli 1-ci səhifədə)**




Hazırda gündəmdə duran əsas məsələ, Zəngəzur dəhlizi də daxil olmaqla, regional kommunikasiyanın bərpasıdır. Bu, həm də sülh sazişinin imzalanması yolunda başlıca keçid nöqtəsidir. Əslində, Paşinyan mətbuat konfransındakı çıxışında bu məsələ ilə bağlı bəzi "kartları" açdı. Dünənə qədər pərdə arxasında qalan ikitərəfli razılaşmalar barədə həqiqəti söylədi və hər şeyi öz adı ilə çağırdı.

Bəli, Nikol Paşinyan İrəvanın Zəngəzur dəhlizini ABŞ, yaxud Avropa şirkətlərindən birinə icarəyə verməyə hazır olduğunu birmənalı şəkildə təsdiqlədi. Baxmayaraq ki, hələ bir-neçə gün bundan əvvəl Ermənistan Xarici İşlər Nazirliyi, eləcə də baş nazirin aparatı bu mövzunun müzakirə predmetyi olmadığı barədə bəyanat, rəsmi açıqlama vermişdilər. Görünən odur ki, Nikol Paşinyan Azərbaycan və Türkiyə ilə münasibətlərin normallaşmasını uzaq gələcəyə saxlamaq fikrində deyil. Ermənistan uzun müddət dəhlizin açılması məsələsini müzakirəyə yaxın buraxmırdı. Beş il idi ki, İrəvan buna maneçilik törədir, dəhlizin açılmasının texniki və nəzəri tərəflərini müzakirə etməkdən yayınırdı. Səbəblərin bir qismi hamıya, o cümlədən bizə də məlum idi. Son dövrlərdə isə İrəvan dərk etdi ki, dəhlizin açılması ilk növbədə onun özünə lazımdır. Axı, bu marşrut onun üçün Türkiyə və Azərbaycana, buradan dünyaya birbaşa çıxış deməkdir. Bəli, bu dəhlizin yaradacağı iqtisadi imkanlar və gətirəcəyi dividendlər Azərbaycandan daha çox Ermənistana lazımdır.

"Azərbaycanla Ermənistan arasında müharibə yox, sülh olacaq. Əslində, biz bu məsələnin uzunmüddətli həlli üzərində işləyirik və işləməyə davam edədəcyik. Hesab edirəm ki, erməni xalqı da bu istiqamətdə bizə dəstək verəcək". Bu sözləri, ilk növbədə, daxili auditoriyaya ünvanlayan Paşinyan məlum səbəblərdən "dəhliz" termininin Ermənistanda müəyyən allergiya doğurduğunu bildirdi və bunun izahını verdi: "Bizdə rəsmi şəkildə "Şimal–Cənub nəqliyyat dəhlizi" anlayışı mövcuddur və bu, normal qarşılanır. Amma tərəfdaşlarımız "dəhliz" ifadəsini işlətdikdə, biz dərhal təşvişə düşürük. Söhbət isə, sadəcə olaraq, beynəlxalq dövriyyədə olan texniki bir termindən gedir".

Ermənistanın regionda nəqliyyat infrastrukturunun açılmasında maraqlı olduğunu etiraf edən Paşinyan bu prosesi yalnız ölkəsinin ərazi bütövlüyü, suverenliyi və yurisdiksiyası çərçivəsində gördüyünü bildirib: "Ermənistandan Ermənistana Azərbaycan ərazisindən, Azərbaycandan Azərbaycana Ermənistan ərazisindən keçən marşrutların, ikitərəfli ticarətin, Ermənistandan Azərbaycan vasitəsilə üçüncü ölkələrə və Azərbaycandan Ermənistan vasitəsilə beynəlxalq rabitənin və tranzit mübadiləsinin açılmasında maraqlıdır. Biz ardıcıl olaraq maraq və hazırlıq nümayiş etdiririk".

Paşinyanın bu açıqlaması ilə cəmiyyətdə Zəngəzur dəhlizi məsələsinə qarşı olan emosional reaksiya ilə bölgədə yaranmış reallıq arasında balans yaratmağa çalışdığını göstərir. O, həm də qeyd edir ki, Ermənistan sülh prosesinə sadiq qalacaq, amma müəyyən mərhələ qət edilməlidir. Bakı da məlum şərtləri yerinə yetirilmədən sülh sazişinin imzalanmasına tələsmir. Nikol Paşinyanın açıqladığı kimi, əgər yeni konstitusiya layihəsini parlament seçkilərindən sonra referendruma çıxaracaqlarsa, bu, təxminən 10-11 aylıq müddət deməkdir. Yəni, elə də çox gözləməli olmayacağıq. Yox, əgər Paşinyan Zəngəzur dəhlizini ABŞ və ya Avropa şirkərlərindən birinə icarəyə vermək barədə düşünürsə, onda qərarını operativ qəbul etməlidir. Mətbuat konfransında bu məsələyə də münasibət bildirən Paşinyanın sözlərinə görə, onun ölkəsində bir çox autsorsinq (kənar mənbədən istifadə etmək -red.) halları var, onlardan bəziləri qaneedicidir, bəziləri isə deyil: "Məsələn, Zvartnots hava limanının autsorsinqdə idarə edilməsini götürək. Düşünmürəm ki, burada Ermənistanın suverenliyi hansısa formada pozulub. Eləcə də su təchizatı, Cənubi Qafqaz dəmir yolu və digər sahələr. Bu sahələr Ermənistan Respublikasının mülkiyyəti olaraq qalmaqdadır. Yolların açılması kontekstində nə müzakirə edilə bilər? Biz, məsələn, investisiyaları cəlb edəcək hansısa şirkətin yaradılmasından danışa bilərik".

Bu məqamda Nikol Paşinyan özünün utopik ideyası olan "Dünyanın kəsişməsi"ni yada salmağı da unutmadı: "Biz avtomobil və dəmir yolları haqqında çox danışırıq. Amma indi qeyd etmək istəyirəm ki, bu kontekstdə biz həm də enerji kəmərlərindən, elektrik xətlərindən, kabellərdən danışırıq. Bu, yaradılmalı və idarə edilməli olan bir təsərrüfatdır. Söhbət bundan gedir və bizim fikrimizcə, bu, Ermənistanın mülkiyyəti ola bilər. İcarə, o cümlədən torpaq sahəsi çox müzakirə olunur və demək istəyirəm ki, bizim qanunlarımıza görə, bu, tikinti hüququ adlanır. Tikinti məntiqində müqavilənin müddəti bitdikdən sonra investisiyalar Ermənistanın mülkiyyətində qalmağa davam edir".

Ermənistan baş naziri mətbuat konfransında, həmçinin Türkiyə ilə münasibətlərin normallaşmasına qarşı çıxanlara sərt cavab verdi. O, bu mövqedə olan daxili və xarici qüvvələrə ritorik sual ünvanladı: "Əgər Ermənistan Türkiyə ilə barışığa getməsə, bəs bunun alternativ nədir?" O, sözünü münasibətlərin normallaşmasına qarşı çıxanlara ünvanlayaraq nəyə ümid etdiklərini, gözləntilərinin nədən ibarət olduğunu anlamadığını deyib: "Onlar demək istəyirlər ki, biz Türkiyə kimi nəhəng bir ölkə ilə müharibə yolunu tutmalıyıq? Ümumiyyətlə, nə danışdığımızı anlayırıqmı?"

Yeri gəlmişkən, oxucuların nəzərinə çatdıraq ki, iyulun 12-də hakim "Vətəndaş müqaviləsi" partiyası Gorusda keçirdiyi siyasi toplantıda Zəngəzur dəhlizinin açılması məsələsini qapalı iclasda müzakirə edib. Bu barədə məlumatı "Joxovurd" qəzeti partiyadakı mənbəyinə istinadla yayıb. Bildirilir ki, toplantı mətbuatsız, tam qapalı şəraitdə baş tutub və əsas mövzu Azərbaycanın əsas hissəsini Naxçıvanla birləşdirəcək yolun Sünik (Zəngəzur-red.) ərazisindən keçən hissəsi olub.

Bu fakt ona dəlalət edir ki, Zəngəzur dəhlizinin işə düşməsi mövzusu artıq Ermənistanın daxili gündəminə çevrilməkdədir. Bu, gec-tez, onsuz da baş verməli idi...

***İmran BƏDİRXANLI***
***XQ***

## Ekspert rəyi



**Fərid ŞƏFİYEV,**
**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri**

– Bəli, Əbu-Dabi görüşü çox pozitiv atmosferdə keçib. İkitərəfli görüşün nəticələrini Azərbaycan Xarici İşlər Nazirliyi də müsbət qiymətləndirib. Bundan sonra bir sıra istiqamətlər üzrə davam etdiriləcək. İkitərəfli münasibətlərin normallaşdırılması və sülh sazişinin imzalanması prosesi birinci, sərhədin delimitasiyası isə ikinci xətt olacaq. Üçüncü istiqamət isə komunikasiyaların açılmasıdır. Burada bizim Zəngəzur dəhlizi, ermənilərin fərqli adlandırdığı və Naxçıvana maneəsiz yolun əldə edilməsidir. Prespektivdə bu yolun ermənilərin özlərinə də xidmət edəcəyi şübhəsizdir. Ümumiyyətlə, kommunikasiya xətlərinin işə düşməsi, sərhədlərin açılması Ermənistan üçün də faydalı olacaq.

Sülh danışıqlarının üçüncü tərəf olmadan, birbaşa dialoq formatında davam etdirilməsi Azərbaycanın təklifi və dəsti-xəttidir. Rəsmi İrəvan bu formatı qəbul elədi və buna müsbət yanaşdığını bildirdi.

Zəngəzur dəhlizinin hansı formada fəaliyyət göstərəcəyi məsələsinə gəldikdə isə bunun ABŞ-ın, yaxud başqa ölkənin şirkətinin nəzarətinə veriləcəyini demək hələ tezdir. Məsələyə ümumi baxış ondan ibarətdir ki, bu yol açılmalı və onun təhlükəsizliyi təmin olunmalıdır. Əsas odur ki, bu zaman Azərbaycan üçün maksimum dərəcədə əlverişli şərait yaradılmalıdır. Yəni biz bu yoldan maneəsiz istifadə etməliyik. Bu iki məsələnin hansə formada həllini tapacağı danışıqlar prosesinin predmetidir. Müsbət irəliləyiş odur ki, Ermənistan artıq bu məsələni müzakirə mövzusu kimi qəbul edir.

## Ekspert rəyi



**Tofiq ABBASOV,**
**siyasi icmalçı**

– Nikol Paşinyan erməni cəmiyyətini addım-addım həm sülhə sağlam yanaşmaya hazırlayır, həm də onu kompromislərə kökləməyə çalışır. Əbu-Dabi görüşü ilə bağlı birmənalı deyə bilərik ki, Azərbaycan İkinci Qarabağ müharibəsi bitdiyi ilk günlərdən əlini Ermənistan tərəfə uzatdı ki, sülhə gələk və inteqrasiya layihələrini birgə həyata keçirək. Sonra Bakı sülh danışıqlarını üçüncü tərəfin iştirakı olmadan, birbaşa aparılmasını təklif elədi. İkitərəfli formatın inandırıcı və ümidverici olduğunu İrəvana başa salmağa çalışdı. Vasitəçilər, moderatorlar, doğrudan da, vəziyyəti normallaşdıran yox, korlayanlardır. Onların mədsədi odur ki, özlərinin korporativ maraqlarını Cənubi Qafqaz bölgəsində yeritsinlər.

Bu günə qədər rəsmi İrəvan sülhdən yayınmaq üçün daim müxtəlif diplomatik manevrlərə əl atırdı. Hətta müəyyən mərhələdə bir çox vədlər versə də, sonra sözünün üstündə durmadı. Amma biz yalançını evinə kimi qovmağı bacardıq və Nikol Paşinyan Əbu-Dabi görüşündə açıq etiraf etdi ki, bəli, bu, faydalı bir formatdır və biz bunu mütləq davam etdirməliyik. Yəni uzun sürən fasilədən sonra, Ermənistan, nəhayət, Azərbaycan dediyi daha bir tezislə razılaşdığını bildirdi.

Kommunikasiyaların açılması məsələsində də Bakı bir müddət İrəvanın sabotajına şahidlik elədi. Sanki bu yol təkcə Azərbaycana və Türkiyəyə lazımdır. Xeyr, bu dəhliz bölgənin bütün dövlətlərinə, hətta deyərdim ki, beynəlxalq birliyə lazımdır. Əgər yanaşmada siyasi yetkinlik və iradə varsa, hamı əmin olur ki, bu dəhliz özündə hansısa qorxunc motivləri ehtiva eləmir. Sadəcə Zəngəzurun statusu ilə bağlı Ermənistanla aramızda fərqli mövqe olduğundan kənardan təkliflər səslənməkdədir. Ən ideal variant məsələnin öz aramızda həll olunmasıdır.

2025 – Konstitusiya və Suverenlik İli

# Dövlətçiliyin qoşa zirvəsi

## Müasir Azərbaycanın siyasi portreti

(əvvəli 1-ci səhifədə)

Müstəqilliyimizin ilk illərində ölkə xaos, siyasi qeyri-müəyyənlik və idarəçilikdə dərin böhranla üz-üzə qalmışdı. Belə mürəkkəb fon şəraitində Konstitusiyanın qəbulu Azərbaycan xalqının öz gələcəyini hüquq əsasında qurmaq, sabit və güclü dövlət yaratmaq iradəsinin təcəssümü idi. Konstitusiya hüquqi sistemin əsasını formalaşdırmaqla yanaşı, idarəetmədə demokratik institutların yaranmasına, hakimiyyətin bölünməsi prinsipinin tətbiqinə və hüquqi dövlətin təşəkkülünə zəmin yaratdı. Ötən 30 il ərzində Konstitusiya Azərbaycanın siyasi həyatını tənzimləyən, onun beynəlxalq hüquqa əsaslanan mövqeyini möhkəmləndirən baza sənədi olaraq qalır. Müxtəlif dövrlərdə dəyişikliklərə məruz qalsa da, onun əsas fəlsəfəsi – hüquq üstünlüyü, dövlətin və vətəndaşın qarşılıqlı məsuliyyəti, milli maraqlara əsaslanan idarəçilik – dəyişməz olaraq qalmaqdadır.

Hüquqi çərçivə üzərində qurulmuş dövlət modeli 2020-ci ildə özünün sınağını verdi. Həmin ilin payızında – 27 sentyabrda başlanan və 44 gün davam edən Vətən müharibəsi Azərbaycanın siyasi suverenliyini tam bərpa etməsinə səbəb oldu. Müharibə nəticəsində Azərbaycan yalnız işğaldan azad olunmuş ərazilərdə dövlət suverenliyinin real tətbiqini təmin etdi. Məhz bu qələbə konstitusion normaların bütün ölkə ərazisində bərqərar olması demək idi. Əgər 1995-ci il Konstitusiyası hüquqi suverenliyin təsdiqi idisə, 2020-ci il hadisələri bu suverenliyin reallığa çevrilməsini, dövlətin öz torpaqlarında tam nəzarətini və beynəlxalq statusunun möhkəmlənməsini təmin etdi.

*

Üç onillikdir ki, Azərbaycan Konstitusiyası ölkənin hüquqi, siyasi və ictimai həyatında əsas yol xəritəsi rolunu oynayır. Onun qəbulundan ötən 30 il ərzində Azərbaycan cəmiyyətində hüquqi sabitliyin formalaşması, demokratiya institutlarının təşəkkülü və vətəndaşların hüquqlarının tədricən gücləndirilməsi bu konstitusional sistemin davamlılığının və dayanıqlılığının göstəricisi olmuşdur. Konstitusiya, ilk növbədə, ölkədə hüquq müstəvisində sabitliyin təminatına çevrildi. Qanun aliliyinin təməli məhz burada qoyuldu və dövlətin fəaliyyətinin bütün istiqamətləri hüquqi çərçivəyə salındı. Bu illər ərzində vətəndaş cəmiyyəti institutlarının təşəkkülü və siyasi partiyaların hüquqi bazada fəaliyyət göstərməsi ölkədə plüralizmin əsaslarının möhkəmləndirilməsi ilə müşayiət olundu.

Əgər 1990-cı illərin əvvəllərində siyasi mühit qeyri-müəyyən və fraqmentar xarakter daşıyırdısa, Konstitusiyanın qəbulundan sonra siyasi proseslərdə şəffaflıq və qanunçuluq prinsipi üstünlük qazandı. Digər mühüm aspekt isə Konstitusiyada təsbit olunan hakimiyyət bölgüsüdür. İcra, qanunverici və məhkəmə hakimiyyətlərinin səlahiyyətləri aydın şəkildə müəyyən edilib və onların qarşılıqlı nəzarət mexanizmləri konstitusional sistem daxilində tarazlığı təmin edib. Bölünmə modeli siyasi proses-





lərin hüquq çərçivəsində tənzimlənməsinə şərait yaradıb. Konstitusiya Məhkəməsinin institusional güclənməsi, normativ aktların hüquqi baxımdan uyğunluğuna nəzarət mexanizmləri və qərarların icrası sahəsində əldə olunan nəticələr Konstitusiyanın real praktikada da işlək olduğunu sübut edir. Bundan başqa, vətəndaş hüquqlarının qorunması və azadlıqların təminatı Konstitusiyanın ana xəttini təşkil edir. Fikir, söz, din və toplaşma azadlığı kimi əsas hüquqların qorunması dövlət-vətəndaş münasibətlərinin əsasını təşkil edir. Hüquqların qanunvericilikdə təsbit olunması ilə yanaşı, onların həyata keçirilməsi üçün institusional mexanizmlər də yaradılıb. Təhsil, səhiyyə və sosial təminat kimi sahələrdə Konstitusiyanın müəyyən etdiyi prinsiplər dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilib, sosial dövlət modeli çərçivəsində əhəmiyyətli nəticələr əldə olunub. Bütün bu faktorlar göstərir ki, Azərbaycan Konstitusiyası siyasi mədəniyyətin formalaşmasında, dövlət idarəçiliyinin institusional əsaslarının qurulmasında və milli birliyin qorunmasında əvəzolunmaz rola malikdir. Onun 30 illik tarixi Azərbaycanın müstəqillik tarixinin ayrılmaz bir hissəsinə çevrilib və bu tarix, öz növbəsində, gələcəkdə daha da təkmilləşəcək hüquqi və siyasi sistem üçün möhkəm zəmin yaradır.

*

2020-ci ilin Vətən müharibəsində əldə olunan tarixi qələbə Azərbaycan dövlətçiliyində yeni mərhələnin başlanğıc nöqtəsinə çevrildi. Əgər bu vaxta qədər ölkənin konstitusional sərhədləri yalnız hüquqi baxımdan tanınırdısa, 2020-ci ildən etibarən bu sərhədlər real idarəetmə və dövlət suverenliyi baxımından da tam təmin olundu. Ərazi bütövlüyünün bərpası dövlətin vahid məkan üzərində idarəçilik imkanlarını tam şəkildə tətbiqini mümkün etdi. İllərlə işğal altında qalan ərazilərdə inzibati nəzarətin, yerli idarəetmə strukturlarının yaradılması və hüquq-mühafizə orqanlarının fəaliyyətə başlaması bu istiqamətdə atılmış mühüm addımlar idi. Suverenliyin güclənməsi, eyni zamanda, Azərbaycanın beynəlxalq münasibətlər sistemində tutduğu mövqeyin daha da möhkəmlənməsinə şərait yaratdı. Prezident İlham Əliyevin postmünaqişə dövründə apardığı çoxşaxəli diplomatiya nəticəsində Azərbaycan qlobal platformalarda diqqətə alınan aktora çevrildi. Daxili sabitliyin və milli birliyin qorunması beş il ərzində ən çox diqqət tələb edən məsələlərdən biri oldu. Postmünaqişə reallığında cəmiyyətin müxtəlif təbəqələri arasında həmrəylik ruhunun saxlanılması və bu birlik hissinin institusional şəkildə dəstəklənməsi xüsusi əhəmiyyət daşıyırdı. Reinteqrasiya prosesləri sosial adaptasiya, iş yerlərinin yaradılması və vətəndaşların dövlət strukturlarına inamının bərpası ilə müşayiət olundu. Xalqla iqtidar arasında qarşılıqlı güvənin qorunması, sosial siyasətin çevikliyi və şəffaflıq meyarlarına əsaslanması ölkə daxilində sabitlik amilinin qorunmasında mühüm rol oynadı. Lakin suverenliyin bərpası ilə bağlı proseslər yeni təhlükəsizlik çağırışlarını da meydana çıxardı. Regionda dayanıqlı sülhün bərqərar olması üçün yalnız hərbi-siyasi amillər kifayət deyil. Qonşu ölkələrlə münasibətlərin konstruktiv əsaslarda inkişafı, qarşılıqlı anlaşma və etimad mühitinin yaradılması uzunmüddətli sülhün əsas təminatıdır. Azərbaycanın bu prosesdə irəli sürdüyü üçtərəfli əməkdaşlıq formatları və regional inteqrasiya təşəbbüsləri sabitlik üçün əsas platforma rolunu oynamağa başlayıb. Beşillik mərhələ göstərdi ki, suverenliyin qazanılması onun qorunması qədər çətin və strateji baxımdan zəruridir. Azərbaycan bu çətinliyi öz inkişaf gündəliyinə çevirməklə, suverenliyin sosial, mədəni və psixoloji aspektlərini gücləndirərək regionda nümunəvi model təqdim edir. Son olaraq qeyd edək ki, 2025-ci il Azərbaycanın müstəqillik tarixində mühüm dönüm nöqtəsidir. Bu il bir tərəfdən Konstitusiyanın qəbulunun 30 illiyi ilə hüquqi dövlətçilik ənənəsinin yetkinləşməsini, digər tərəfdən 2020-ci ildə əldə olunmuş tam suverenliyin beşillik təcrübəsini simvolizə edir. İndi isə qarşıda duran əsas vəzifə bu nailiyyətləri gələcəyə daşımaq, hüquqi, iqtisadi və sosial sistemləri yeni çağırışlara uyğunlaşdırmaqdır. Bu istiqamətdə atılacaq hər bir addım, əslində, Azərbaycanın milli maraqlarına xidmət edən, sabaha inam yaradan strateji vəzifə kimi qiymətləndirilməlidir.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

---

# Separatçılığın “sonuncu qalası”nın süqutu

## İrəvandakı “nümayəndəlik binası”nın geri alınması hüquqi normasının tələbidir

**Ermənistan hakimiyyəti Azərbaycan ərazisində 32 il (1991–2023-cü illərdə) mövcud olmuş qondarma separatçı rejimin İrəvanda yerləşən nümayəndəliyinin binasını onların əlindən almaq istəyir. Bununla bağlı ölkənin Baş Prokurorluğu iyulun 15-də İrəvan inzibati məhkəməsində mülki iddia qaldırıb. İddianın məqsədi keçmiş qondarma rejimin “nazirlər kabineti”nin 2017-ci ilin martında qeydiyyata alınmış “nümayəndəlik” binası üzərində mülkiyyət hüququnu etibarsız hesab etməkdir. İddia formal olaraq Daşınmaz Əmlakın Kadastrı üzrə Dövlət Komitəsinə qarşı qaldırılıb. “Prokurorluq tələb edir ki, İrəvan şəhəri, Arabkir inzibati rayonu, N.Zaryan küçəsi, 17A ünvanında yerləşən binaya “dqr hökuməti”nin mülkiyyət hüquqlarının dövlət qeydiyyatı etibarsız hesab edilsin”, – Məhkəmə Aktlarının Vahid Qeydiyyat Sistemində deyilir.**

Qeyd edək ki, Ermənistan baş naziri Nikol Paşinyan iyulun 16-da keçirdiyi mətbuat konfransında bu barədə danışıb. O, ölkə ərazisində “ikinci dövlətin mövcudluğuna” imkan verməyəcəyini bildirib: “Mən birbaşa dedim ki, Ermənistanda ikinci dövlətin mövcud olmasına icazə verə bilmərəm. Mən bu barədə əvvəllər də danışmışam və ümid edirdim ki, bu mesaj başa düşüləcək. Bir, iki, üç... Dövlət tədbir görməlidir”. O, əlavə edib ki, bu daşınmaz əmlak Ermənistanın mülkiyyəti olmalıdır.

Paşinyan Qarabağdan könüllü köç etmiş şəxslərin sosial çətinlikləri ilə bağlı vəziyyəti də şərh edib: “Deyirlər ki, Qarabağ xalqı (?) yenidən yaşayış yerlərini itirmək təhlükəsi ilə üz-üzə qalıb. Mən bunu qəti şəkildə təkzib edirəm, belə bir şey yoxdur. Bütün bacı-qardaşlarımıza, xüsusilə hökumətin son qərarından sonra dəstək proqramı var”.

Onu da bildirək ki, hələ ötən ilin sentyabrında Ermənistan parlamentinin sədri Alen Simonyan keçmiş qondarma rejimin rəhbərliyinin binadan çıxarılmasına eyham vurmuşdu. Simonyan “dqr hakimiyyətini” qondarma respublikanı ləğv etməkdə suçlamışdı. Bildirmişdi ki, onlar bundan sonra müntəzəm olaraq “Artsax nümayəndəliyi”ndə görüşlər təşkil edir və bu günahlarını yumağa çalışırlar. “Hesab edirəm ki, biz indi bu binanın təyinatına yenidən baxmalıyıq. O, belə məqsədlərə xidmət etməməlidir” – deyə Simonyan bildirmişdi.

Həmçinin demişdi ki, Ermənistan–Qarabağ parlamentlərarası komissiyası buraxılmalıdır, çünki “qarşı tərəf” artıq səlahiyyətli deyil. O, bu bəyanatı parlamentin iclası zamanı “Hayastan” fraksiyasının katibi Artsvik Minasyanın üç illik fasilədən sonra bu komissiyanın iclasını çağırmaq niyyətində olub-olmaması sualına cavab olaraq səsləndirmişdi. Simonyan bir az da irəli gedərək bildirmişdi ki, daha onun üçün Qarabağın heç bir rəsmisi, o cümlədən “Qarabağın prezidenti” (?) ifadəsi yoxdur. Bir hüquqşünas kimi, o, hesab edir ki, adıçəkilən formatın ləğvi məsələsi ciddi müzakirə olunmalıdır.

Qeyd edək ki, Ermənistanın Daşınmaz Əmlakın Kadastrı üzrə Dövlət Komitəsinə avtomatik daxil olan məlumatlara əsasən, keçmiş separatçı rejimin sözügedən əmlaka mülkiyyət hüququ 2017-ci il martın 20-də qeydə alınıb. Baş Prokurorluğun hüquqlarını mübahisələndirdiyi əmlak uzun illər rejimin Ermənistandakı daimi nümayəndəliyinin binası olub. Bu, 1969-cu ildə tikilmiş ikimərtəbəli inzibati binadır. Onun 0, 11 hektar torpaq sahəsi, elektrik yarımstansiyası, zirzəmisi, yarımzirzəmisi, həmçinin 1998-ci ildə inşa edilmiş böyük qarajı var.

Bu bina İkinci Qarabağ müharibəsindən, xüsusilə 2023-cü ildəki antiterror əməliyyatından sonra separatçıların yığışdığı, müxtəlif məkrli planlar üzərində işlədiyi əsas məkan idi. Burada yalnız siyasi deyil, həm də hərbi təxribatlar hazırlanırdı. Separatçılar Azərbaycan dövlətinə qarşı yönəlmiş dezinformasiya və təbliğat kampaniyalarını planlaşdırır, regionda gərginliyi saxlamağa çalışırdılar. Həmin məkanda xarici kuratorların iştirakı ilə gizli görüşlər keçirilir, sülh təşəbbüsləri bilərəkdən sabotaj olunurdu. Binanın “idarəetmə mərkəzi” kimi təqdim olunması isə əslində, işğalın ideoloji davamı idi. Bu məkan Qarabağda qeyri-qanuni rejimin beyin mərkəzi kimi fəaliyyət göstərir və regionda sabitliyə ən böyük təhdidlərdən biri sayılırdı. İndi isə onun separatçıların əlindən alınması tarixi ədalətin bərpası kimi dəyərləndirilməlidir. Bu addım yalnız simvolik deyil, həm də strateji əhəmiyyət daşıyır. Çünki hələ də Azərbaycana qarşı fəaliyyət göstərən məkrli mərkəz iflic edilir. Binanın geri qaytarılması ilə separatçıların informasiya, koordinasiya və təxribat imkanları tamamilə çökür. Bu addımı Ermənistan iqtidarının bölgədə sülhdə maraqlı olmasının göstəricisi hesab etmək olar. Rəsmi İrəvan bununla paralel idarəçilik cəhdlərinə son qoyur. Bu, həm də beynəlxalq ictimaiyyətə açıq mesajdır ki, artıq qeyri-qanuni rejim tarixin zibilliyinə göndərilib. Nəinki keçmiş rejimin, onun hansısa hücrələrinin də heç bir şansı yoxdur. Separatizmin mərkəzi sayılan bu binanın neytrallaşdırılması sülhün və sabitliyin bərqərar olunmasına aparan mühüm mərhələdir.

*

Bununla belə separatçılar hələ də xam xəyaldadırlar. Onlar “bəlkə də qaytardılar” eşqi ilə yaşayaraq məhkəmədə qarşılıqlı iddia qaldırırlar. Vəkil Roman Yeritsyan bildirib ki, onlar “nümayəndəliyin” binası uğrunda mübarizə aparmaq niyyətindədirlər. Yeritsyan bəyan edib ki, o, Qarabağ tərəfinin (?) maraqlarını təmsil etmək səlahiyyətinə malikdir və onların maraqlarını inzibati və mülki məhkəmələrdə qanuni yolla müdafiə edəcək: “Biz bu qanunsuzluğa qarşı mübarizə aparacağıq, mənim üçün bu məsələ prinsipialdır. Biz “dqr nümayəndəliyi” üzərində mülkiyyət hüququnun aradan qaldırılmasına imkan verməyəcəyik. “Artsaxın son ruhu” Ermənistanda sönməyəcək”. Vəkil bildirib ki, hələlik onun fəaliyyət planı yoxdur, lakin təkcə öz həmvətənlərini deyil, həm də bütün rəğbət bəsləyənləri bu məsələdə hər cür köməklik göstərməyə çağırır.

Əlbəttə, özünü vəkil adlandıran bu şəxsin açıqladığı məlumat separatçıların uydurma “dövlətçiliyinin” süqutunu hələ də qəbul edə bilmədiklərini nümayiş etdirir. Onlar Azərbaycanın ərazi bütövlüyünü və suveren hüquqlarını tanımaq əvəzinə, özlərini hələ də hansısa “dövlət”in nümayəndələri kimi təqdim edir, beynəlxalq hüququn, reallığın və məntiqin tam əksinə olaraq, iddialar irəli sürürlər. Vəkilin “mübarizə” bəyanatları da bu xam xəyalların davamıdır. O, açıq şəkildə “Artsaxın ruhu”nun sönməyəcəyini söyləməklə təkcə hüquqi deyil, həm də siyasi çağırış edir. Bu isə Ermənistanın hələ də separatizmlə tam şəkildə üzülüşmək istəmədiyinin göstəricisidir.

Yeritsyan və onun kimiləri anlamalıdırlar ki, artıq “Artsax” deyilən qondarma rejim yoxdur. Onun bütün hüquqi iddiaları əsassız və nəticəsizdir. Çünki bu keçmiş qondarma rejim heç bir dövlət, o cümlədən Ermənistanın özü tərəfindən tanınmayıb. Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir və bu reallıq BMT başda olmaqla, dünyanın əksər ölkələri tərəfindən qəbul olunub. İstər inzibati, istərsə də mülki müstəvidə iddialar qaldırmaq cəhdləri, əslində, hüququn deyil, revanşizmin alətinə çevrilir.

Separatçılar “nümayəndəlik binası” kimi təqdim etdikləri tikili uğrunda mübarizəyə girişməklə, əslində, hüquqi prinsipləri deyil, öz keçmiş qaranlıq fəaliyyətlərini müdafiə edirlər. Unudurlar ki, bu bina məhz Qarabağdakı qanunsuz rejimin “beyin mərkəzi”, Azərbaycan əleyhinə təxribatların hazırlandığı, saxta sənədlərin dövriyyəyə buraxıldığı, təbliğat kampaniyalarının koordinasiya edildiyi bir məkan olub. Belə bir obyektin “mülkiyyət hüququ” barədə danışmaq absurddur və hüquqla heç bir əlaqəsi yoxdur. Yeritsyanın “bu məsələ mənim üçün prinsipialdır” deməsi isə yalnız şəxsi ambisiyaları və siyasi motivasiyasının təzahürüdür.

Digər tərəfdən, bu cür açıqlamaların Ermənistan cəmiyyətində rezonans doğurması da təəssüf doğurur. Belə adamlar Ermənistanda separatçı ideologiyanı dirçəltmək və “Artsax” mifini yaşatmaq üçün sosial-iqtisadi çətinliklər içində olan insanlara ümid vəd edir, onları yeni qarşıdurmaların və hüquqi avantüraların arxasınca aparmağa çalışırlar. Halbuki Ermənistan hakimiyyəti rəsmi səviyyədə artıq Qarabağın Azərbaycanın tərkib hissəsi olduğunu qəbul etdiyini bəyan edib. Bu fonda Yeritsyanın çıxışları ya həmin bəyanatların səmimiliyini sual altına alır, ya da İrəvanda revanşist dairələrin hələ də gizli dəstəyinə arxalanır. Separatçıların baş qaldırmaq cəhdləri Ermənistan üçün daha ciddi nəticələr doğura bilər. Çünki bu, qeyd etdiyimiz kimi, sülh prosesinə və regionda sabitliyə açıq sabotaj cəhdidir.

***Səxavət HƏMİD***
***XQ***

### Ekspert rəyi



**Zaur MƏMMƏDOV,**
**Dövlət İdarəçilik**
**Akademiyasının müşaviri,**
**Bakı Politoloqlar**
**Klubunun rəhbəri**

– Qarabağdakı keçmiş qondarma rejimin uzun illər siyasi və ideoloji mərkəz kimi istifadə etdiyi binanın Ermənistan dövlətinin nəzarətinə keçməsi mühüm hadisədir. Bu bina, sadəcə, bir tikili deyil, keçmiş rejimin simvolu, təbliğat və təxribatların planlaşdırıldığı mərkəz idi. Onun geri alınması separatçılığın rəsmi və rəmzi şəkildə dağılması deməkdir. Bu fonda bəzi separatçıların “mülkiyyət hüququ” ilə bağlı məhkəməyə müraciət niyyəti hüquqi arqument deyil, ideoloji revanşizmdir. Bu çıxışlar Ermənistandakı bəzi dairələrin hələ də “Artsax” xülyasından imtina etmədiyini, bölgədə sabitliyə qarşı gizli müqavimətin davam etdiyini göstərir. Belə gedişlər Ermənistanla Azərbaycan arasında yaranmaqda olan etimad mühitinə zərbə vurur və danışıqlar prosesinə maneə yaradır. Odur ki, oxşar cəhdlərin qarşısı vaxtında alınmalı, revanşist çağırışlara hüquqi və siyasi qiymət verilməlidir.

## ANAMA-nın yaranmasından 27 il keçir

**Azərbaycanın işğaldan azad etdiyi ərazilərin böyük hissəsi mina və partlamamış hərbi sursatlarla çirklənmiş vəziyyətdədir. Belə bir şərait respublikamıza düşməndən təmizlənən torpaqlarda bərpa – quruculuq işləri aparmağa mane olur. Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) isə işğaldan azad edilmiş ərazilərin təhlükəsizliyinin təmin olunması və istifadəyə yararlı hala gətirilməsi missiyasını həyata keçirir.**

Minatəmizləmə prosesi əhalinin geridönüşü, sosial infrastrukturun bərpası, kənd təsərrüfatının dirçəldilməsi və regionun ümumi inkişafı üçün xüsusi önəm daşıyır. Bu baxımdan ANAMA-nın digər qurumlarla birgə həyata keçirdiyi əməliyyatlar, tətbiq etdiyi yeni texnologiyalar və koordinasiya mexanizmləri diqqət mərkəzində saxlanılır.



**Mənfur düşmən işğaldan sonra nəinki bütün binalarımızı, bütün tarixi abidələrimizi dağıdıb, eyni zamanda, hər tərəfi minalayıb. Təkcə təmas xəttinə yaxın olan əraziləri yox, şəhərləri, yolları, önəmli strateji yüksəklikləri minalayıb. Ona görə bizim istehkamçıların üzərinə çox böyük vəzifə düşür... Hətta hazırda yolların, dəmir yolunun çəkilişi ilə bağlı işləri də biz ancaq istehkamçılar o əraziləri minalardan təmizləyəndən sonra görə bilirik. Odur ki, orada istənilən fəallıq, istənilən inkişaf minalardan təmizləmə işindən asılıdır. Ona görə biz həm sürəti artırmalıyıq, eyni zamanda, minalardan təmizləmə işi elə aparılmalıdır ki, o işlər başa çatandan sonra hər hansı bir təhlükə olmasın.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

# ANAMA Qarabağı "mina

# *Minatəmizləyənlərimiz namərd düşmənin*



**2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək davam edən 44 günlük Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan tarixi qələbə ilə ölkəmizin ərazi bütövlüyü təmin edildi. Bununla da 30 il davam edən qəsbkarlığa son qoyuldu və düşməndən geri alınan ərazilərin bərpasına və Böyük Qayıdış proqramının həyata keçirilməsinə başlandı. Belə bir prosesdə isə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) qarşısında yeni vəzifə və öhdəliklər yer aldı, dövlətimizin başçısı tərəfindən bu işlərin həm mümkün qədər qısa müddətdə, həm də yüksək keyfiyyət və dəqiqliklə həyata keçirilməsi qarşıya mühüm vəzifə kimi qoyuldu.**

**ANAMA işğalçıdan təmizlənən ərazilərin təhlükəsizliyinin təmin olunması və istifadəyə yararlı hala gətirilməsi missiyasını həyata keçirərkən, ilk növbədə, infrastruktur obyektlərinin inşası həyata keçirilən əraziləri yoxlayaraq minalardan təmizləməyə başlayıb. Sonrakı mərhələdə isə minatəmizləmə əməliyyatlarının şəhərlərdə və kəndlərdə aparılması diqqət mərkəzində saxlanılıb. Qurumun texniki imkanları, insan resursları, eləcə də əməliyyat metodları inkişaf etdirilib. Minatəmizləmə sahəsində bir sıra yeniliklərə imza atılıb.**

**Ümumiyyətlə, minatəmizləmə prosesi əhalinin geridönüşü, sosial infrastrukturun bərpası, kənd təsərrüfatının dirçəldilməsi və regionun ümumi inkişafı üçün xüsusi önəm daşıyır. Bu baxımdan ANAMA-nın digər qurumlarla birgə həyata keçirdiyi əməliyyatlar, tətbiq etdiyi yeni texnologiyalar və koordinasiya mexanizmləri diqqət mərkəzində saxlanılır.**

**Bu mühüm istiqamətdə görülən işlər barədə daha ətraflı məlumat almaq üçün ANAMA-nın İdarə Heyətinin sədri Vüqar Süleymanovla həmsöhbət olduq.**

**Bu mühüm istiqamətdə görülən işlər barədə daha ətraflı məlumat almaq üçün ANAMA-nın İdarə Heyətinin sədri Vüqar Süleymanovla "Xalq qəzeti" redaksiyasında geniş müsahibə keçirdik.**

**Bu mühüm istiqamətdə görülən işlər barədə daha ətraflı məlumat almaq üçün həmsöhbətimiz ANAMA-nın İdarə Heyətinin sədri Vüqar Süleymanovdur.**

**– Söhbətimizin əvvəlində rəhbərlik etdiyiniz qurumun yaranması və agentliyin qarşısında duran vəzifələr barədə məlumat verməyinizi istərdik.**

– Mina problemi çox ağır sosial bəladır. Bu problemin aradan qaldırılması üçün güclü maddi-texniki baza, insan potensialı və maliyyə resursları tələb olunur. Minatəmizləmə əməliyyatlarının özü spesifik bir prosesdir və digər sahələrdən çox fərqlənir. Bu proseslərin hamısı beynəlxalq humanitar minatəmizləmə standartlarında və qaydalarında öz əksini tapıb. Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) də öz işini beynəlxalq humanitar minatəmizləmə standartlarına uyğun qurur. Agentliyimizin bütün əməkdaşları bu işi vaxtında və keyfiyyətlə yerinə yetirmək üçün əllərindən gələni əsirgəmirlər.

Məlumat üçün deyim ki, ANAMA 1998-ci il iyulun 18-də ulu öndər Heydər Əliyevin 854 saylı tarixi bir Sərəncamı əsasında yaradılmışdır. Ümummilli liderin uzaqgörən siyasəti nəticəsində zamanında müəyyən edilən strateji yanaşmalar bu gün




Azərbaycanın mina təhlükəsi ilə mübarizədə də öz bəhrəsini verir.

Həmçinin, fürsətdən istifadə edərək qeyd edim ki, bu gün ANAMA-nın yaradılmasından 27 il keçir. Bu münasibətlə bu cür şərəfli və çətin peşədə çalışan qəhrəman minaaxtaranlarımızı və bütün ANAMA kollektivini təbrik edir, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıram.

Agentliyin təsis edilməsində əsas məqsəd Birinci Qarabağ savaşı zamanı minalarla və partlamamış hərbi sursatlarla çirklənmiş sahələrin təmizlənərək həmin ərazilərdə bərpa-quruculuq işlərinin aparılmasını təmin etməkdən ibarət olub. Ötən illərdə agentlik tərəfindən böyük işlər görülüb, mühüm minatəmizləmə layihələri icra olunub, bir sıra maarifləndirmə tədbirləri, müxtəlif təlimlər həyata keçirilib. Bu işlər hazırda da davam etdirilir. Dövlət qayğısı, Vətən sevgisi, işğaldan azad olunmuş ərazilərdə bərpa-quruculuq işlərinin doğurduğu qürur hissi bizi qarşımıza qoyulan vəzifələrin layiqincə, vaxtında və keyfiyyətlə yerinə yetirməyə ruhlandırır. Yeri gəlmişkən, bizdə keyfiyyət məsələsinə xüsusi önəm verilir. Çünki keyfiyyət insan həyatı, insan sağlamlığı ilə bağlıdır. Ona görə də biz bu amilə xüsusi diqqət göstəririk ki, minatəmizləmə fəaliyyəti həyata keçirdiyimiz ərazilər tam təmiz və təhlükəsiz olsun.

44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan parlaq tarixi qələbə ilə ölkəmizin ərazi bütövlüyü təmin edildi. Bununla da 30 illik işğala son qoyuldu və düşməndən geri alınan ərazilərin bərpası və Böyük Qayıdış Proqramının həyata keçirilməsinə başlandı.

Vətən müharibəsi başa çatdıqdan dərhal sonra işğaldan azad olunmuş ərazilərdə minatəmizləmə fəaliyyətinə start verildi. Onu da qeyd etmək istəyirəm ki, 2020-ci ilin sonu, 2021-ci ilin əvvəlində ANAMA-nın istər işçi qüvvəsi, istərsə də maddi-texniki bazası yetərincə deyildi. Bu çatışmazlıqların aradan qaldırılması məqsədilə ölkə Prezidenti cənab İlham Əliyevin 2021-ci il 15 yanvar tarixli 1251 saylı Fərmanı ilə ANAMA yenidən quruldu və quruma Dövlət Agentliyi statusu verildi. Dövlət başçısının sərəncamı ilə qarşımıza bir sıra mühüm vəzifələr qoyuldu. Bizə göstərilən bu yüksək etimadı doğrultmaq, üzərimizə düşən vəzifələri yüksək səviyyədə yerinə yetrirmək, eləcə də qurumun fəaliyyətinin yenidən təşkili üçün bir sistem quruldu.

Cənab Prezidentin 16 sentyabr 2021-ci il tarixli 1441 saylı növbəti Fərmanı ilə ölkədə həyata keçirilən humanitar minatəmizləmə fəaliyyətinin təşkili, əlaqələndirilməsi, monitorinqi və sonda keyfiyyət yoxlanması məsələləri ANAMA-ya həvalə olundu. Hazırda agentlik ölkəmizdə icra olunan humanitar minatəmizləmə prosesinə məsul bir qurumdur. Eyni zamanda, bu prosesə bir neçə təşkilat cəlb olunub. Müdafiə və Fövqəladə Hallar nazirlikləri, Dövlət Sərhəd Xidməti bizimlə əməkdaşlıq şəraitində çalışır, işğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsi kimi taleyüklü məsələyə öz töhfələrini verirlər. Eyni zamanda, yerli qeyri-hökumət təşkilatları, ölkəmizdə fəaliyyət göstərən ixtisaslaşmış kommersiya təşkilatları da minatəmizləmə fəaliyyəti ilə bağlı işlərdə ANAMA-nın koordinasiyası ilə fəaliyyət göstərirlər. Bundan əlavə, ANAMA minatəmizləmə fəaliyyəti ilə bağlı maarifləndirmə işlərinə görə də məsul qurumdur. Sadaladığım bütün bu işləri biz həm öz qüvvələrimiz hesabına, həm digər dövlət qurumları ilə birgə koordinasiyalı şəkildə həyata keçiririk.

Böyük Qayıdış Proqramının reallaşdırılması üçün ilk günlərdən Agentliyin bütün qüvvələri səfərbər olundu. Bununla bağlı işin bir neçə istiqamətdə aparılması diqqətdə saxlanıldı. İlk növbədə, infrastruktur obyektlərinin inşası aparılan ərazilər yoxlanılaraq minalardan təmizlənməyə başlanıldı. Sonrakı mərhələdə isə minatəmizləmə əməliyyatlarının şəhərlərdə və kəndlərdə həyata keçirilməsi diqqət mərkəzində saxlanıldı. Qurumun texniki imkanları, insan resursları, eləcə də əməliyyat metodları inkişaf etdirildi. Minatəmizləmə sahəsində bir sıra yeniliklərə də imza atıldı.

Beləliklə, Vətən müharibəsini güclü və qalib dövlət kimi başa çatdıran Azərbaycan işğaldan azad olunan şəhər və kəndlərimizi qısa müddətdə dirçəltməyi, torpaq həsrəti ilə yaşayan soydaşlarımızı öz doğma yurd yerlərinə qaytarmağı qarşıya mühüm vəzifə kimi qoydu və minatəmizləmə əməliyyatlarına başlanıldı. Prezident İlham Əliyevin – "Azad edilmiş torpaqlarda minatəmizləmə işləri birinci dərəcəli vəzifədir. Bu vəzifə icra olunmadan hər hansı bir inkişafdan söhbət gedə bilməz" – sözləri də bunun bariz ifadəsi idi.

Ölkəmizdə mövcud mina problemi hər zaman ölkə rəhbərliyinin diqqətindədir. Ölkə Prezidenti cənab İlham Əliyev humanitar minatəmizləmənin xalqımız üçün əhəmiyyətini vacib hesab edərək, 18-ci Milli Dayanıqlı İnkişaf Məqsədinin təyin olunması təşəbbüsü ilə çıxış etmişdir. Bundan əlavə, Azərbaycan qlobal miqyasda humanitar minatəmizləmə fəaliyyətini əhatə edən 18-ci DİM-in qəbulu təşəbbüsünü irəli sürmüş və bu təşəbbüsü aktiv olaraq təşviq etməkdədir. 18-ci DİM işğaldan azad olunmuş ərazilərimizə təhlükəsiz qayıdış, məskunlaşma, bərpa, rifah və sülh üçün mina təhlükəsi ilə mübarizəyə dair fəaliyyəti özündə ehtiva edir.

**- Bu gün işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən minatəmizləmə əməliyyatlarının gedişi barədə nə deyə bilərsiniz?**

– Sualınızla bağlı əvvəlcə onu qeyd edim ki, Ermənistanın yerləşdirdiyi minalar bugünədək problem olaraq ciddi narahatlıq doğurur. İlkin qiymətləndirmələrə görə, Ermənistan işğal dövründə torpaqlarımıza 1 milyondan çox mina basdırıb.

Keçmiş məcburi köçkünlərin işğaldan azad olunmuş ərazilərə geri qayıtmalarını təmin etmək məqsədilə əsasən yaşayış məntəqələrinin, nəqliyyat, enerji və digər strateji infrastrukturların yaradılması, eləcə də kənd təsərrüfatı sahələri və digər prioritet istiqamətlərdə 2020-ci il noyabr ayının 10-dan bu il iyulun 14-dək aparılan minatəmizləmə əməliyyatları nəticəsində işğaldan azad edilən 213 min 178 hektar ərazi təmizlənib, ümumilikdə, 201 min 265 ədəd mina və partlamamış hərbi sursat (PHS) aşkar edilərək zərərsizləşdirilib. Onlardan 141 min 793 ədədi PHS, 37 min 512 ədədi piyada əleyhinə mina (PƏM), 21 min 960 ədədi isə tank əleyhinə minadır (TƏM).

Məlumat üçün bildirim ki, Agentlik Qazax rayonunun işğaldan azad edilmiş ərazilərində də 2024-cü ilin aprel ayından etibarən minatəmizləmə fəaliyyəti icra edir. Qeyd edilmiş ərazilərdə həm relief çətinliyi, həm də minalarla yüksək səviyyədə çirklənmə mövcuddur. Bu ərazilərdə minaların mina xətti kimi deyil, qrup minaları, yəni 5-6 və daha çox minadan ibarət formatda basdırılması hallarına rast gəlinir.

**– Ermənistanın təqdim etdiyi mina xəritələrinin dəqiqliyi və etibarlılığı barədə fikirlərinizi də bilmək istərdik...**

– 2021-ci il ərzində müəyyən təzyiqlərdən sonra Ermənistan tərəfi ölkəmizin işğaldan azad olunmuş ərazilərində mövcud olan mina sahələrinə dair bəzi mina formulyarlarını Azərbaycan tərəfinə təqdim edib. Təqdim olunan formulyarlar keçmiş təmas xətti boyu ərazilərin bir qismini əhatə edirdi. Normativ texniki qaydalara əsasən mina sahələrinin formulyarlarında koordinatlar, istinad nöqtələri, basdırılmış minaların növləri, sayları, ara məsafələri, basdırılma və gizlətmə üsullarına dair məlumatlar qeyd olunur. Lakin, təqdim edilən formulyarlarda məlumatlar qeyri-dəqiq, etibarsız və natamam əks olunub. Formulyarlar üzərində təhlil və emal işləri aparıldıqdan sonra qeyd edilən məlumatların real mina sahələri ilə uzlaşmadığı, istinad nöqtələrinin koordinatlarının yanlış və yararsız olduğu, 25% dəqiqliyi və etibarlığı əks etdiyi müəyyən edilib.

Agentlik tərəfindən qeyri-texniki tədqiqat prosesi mütəmadi olaraq davam edir. Hər gün biz müəyyən məlumatlar əldə edirik. Burada xidmət keçən hərbçilərlə söhbət zamanı, ərazidə mina hadisəsinin baş verməsi, mal-qaranın minaya düşməsi və ya traktorun minanı partlatması və s. kimi məlumatlar alırıq. Bütün bunlar bizim üçün qeyri-texniki tədqiqatın informasiya mənbələridir.

Biz birinci təmas xətti dediyimiz ərazinin çox hissəsinində çəpərləmə prosesi icra edirik. Bu dünya praktikasında da mövcuddur və insanların mina riskindən qorunması üçün əsas vasitələrdən biridir.

Onu da deyim ki, mina sahələri fərqli olur. Bizim üçün ən ağır sahələr təmas xəttinə düşən ərazilərdir. Bu da bir neçə amillə bağlıdır. Birinci amil minaların sayının və sıxlığının çoxluğu, ikinci amil isə basdırılmış minaların ətrafında metalla çirklənmənin çox olmasıdır. Heç şübhəsiz, bizim əsas işimiz minanı tapıb zərərsizləşdirməkdən ibarətdir. Bu prosesin incəlikləri barədə bir qədər məlumat vermək istəyirəm. Minaaxtaran detektorla işləyən zaman detektorun əks etdirdiyi hər bir siqnalı tədqiq edir. Minaaxtaran humanitar minatəmizləmə standartlarına uyğun olaraq siqnal olan yerdə fəaliyyətini icra etməyə başlayır. Son dərəcə dəqiq, səliqəli şəkildə prosesi həyata keçirir. Minaaxtaran işi görüb qurtardıqdan sonra məlum olur ki, detektorun siqnalına səbəb torpaqda olan hansısa bir dəmir parçası imiş. Amma bu işə minaaxtaranın kifayət qədər vaxtı gedir. Yeri gəlmişkən deyim ki, bəzi ərazilərdə hətta daşlar da detektorun siqnal verməsinə səbəb olur.

| Rayonun adı | 2020-2025 | |
|---|---|---|
| | Təmizlənmiş ərazi (ha) | Tapıntıların sayı (ədəd) |
| Ağdam | 38 376.9 | 32 374 |
| Ağdərə | 2 151.4 | 2 359 |
| Cəbrayıl | 42 218.2 | 23 658 |
| Füzuli | 31 530.1 | 46 330 |
| Kəlbəcər | 20 266.6 | 4 202 |
| Laçın | 14 211.5 | 2 851 |
| Qubadlı | 18 450.2 | 4 031 |
| Şuşa | 1 623.2 | 3 023 |
| Tərtər | 4 926.7 | 7 044 |
| Xankəndi | 926.5 | 21 823 |
| Xocalı | 5 416.8 | 29 996 |
| Xocavənd | 12 970.1 | 18 022 |
| Zəngilan | 19 121.2 | 2 673 |
| Qazax | 161.1 | 1 410 |
| Qarabağ və Şərqi Zəngəzura daxil olmayan ərazilər | 828.2 | 1 469 |
| Cəmi: | 213 178.7 ha | 201 265 ədəd |



Çünki belə daşların tərkibində hər hansı bir mineralların olması detektorun anındaca reaksiya verməsi ilə nəticələnir. Bütün bu proseslər çoxlu vaxt itkisi hesabına başa gəlsə də, burada mina təhlükəsinin olmaması dəqiqləşdirilir.

Göründüyü kimi, bu ərazilərdə minaların sayının çoxluğu, onların sıxlığı, metalla çirklənmə səviyyəsinin yuxarı olması, orada qurulmuş tələ məftilləri, səngərlər, istehkamlar və s. işi mürəkkəbləşdirir. Dağlıq ərazilərdə minatəmizləmə əməliyyatlarının həyata keçirilməsinin öz çətinlikləri var. Həmin ərazilərdə aparılan işlərin özünün spesifikası var. Çünki bu ərazilərdə maililik var.

Hazırda minalarla və partlamamış hərbi sursatlarla çirklənməsi ehtimal olunan ərazi 11 min 667 kvadratkilometr təşkil edir. Bu o demək deyil ki, həmin ərazinin hamısında mina var. Amma biz heç zaman düşmənin burada minaların basdırmamasını və ya ərazidə partlamamış hərbi sursatların olmamasını da əminliklə söyləyə bilmərik. Bu səbəbdən biz həmin sahələri “şübhəli-təhlükəli ərazi” kimi qəbul etmişik. Çünki döyüş gedən yerdə minaatanlardan, toplardan atəş açılır, aviabombalar atılır və s. Orada onların bir hissəsi qalır. Buna görə də döyüş əməliyyatları aparılan bütün ərazilərdə minatəmizləmə işləri aparılmalı, təhlükə ilə bağlı şübhələr tam aradan qaldırılmalıdır. Bu, bütün dünyada belədir.

lan araşdırmalar nəticəsində qeyd edilmiş mina hadisələrinin 64%-nin keçmiş təmas xəttindən kənarda, 36%-nin isə keçmiş təmas xətti ərazilərində baş verdiyi müəyyən olunmuşdur.

Ümumiyyətlə, 1991-ci ildən bugünədək 3400 nəfərdən çox minadan zərərçəkən qeydə alınıb, onlardan 362 nəfəri azyaşlı və gənc, 38 nəfəri qadın olub.

Onu da qeyd edim ki, sonuncu mina hadisəsi cari ilin iyul ayının 10-da Ağdərə rayonunun Həsənqaya kəndində baş verib. Həsənqaya kəndi, keçmiş təmas xəttinə yaxın yerləşən ərazilərdən biridir.

Mina hadisələrinin illər üzrə dinamikasına nəzər salındıqda bu sahədə azalmanın baş verdiyinin şahidi oluruq. Heç şübhəsiz, mina hadisələrinin azalmasında apardığımız maarifləndirmə işlərinin çox böyük rolu var. Mina təhlükəsi olan ərazilərdə yüzlərlə xəbərdaredici-məlumatlandırıcı lövhələr, təhlükə işarələri yerləşdirilib.

Bir məsələni də xatırlatmaq istərdim.

yerləşən təsərrüfatların, dağıdılan yaşayış məntəqələrinin, çay sahillərinin minalarla ciddi şəkildə çirkləndiyi aşkar edilib. Minalara, eyni zamanda, kənd təsərrüfatına yararlı torpaqlarda və ətraflarında, otlaqlarda, yollarda, körpülərdə, məktəblərdə, su mənbələrində (kəhrizlərdə) rast gəlinib. Eyni zamanda, işğaldan azad edilmiş rayonların bir sıra kənd qəbiristanlıqlarında mina hadisələri baş verib. Kəlbəcər rayonunun Ağdaban kəndi ərazisindəki qəbiristanlıqda minalanmış sahə aşkar olunub. Bütün bunlarla yanaşı, karvansaray, türbə, pir (ziyarətgah), məscid, alban kilsəsi kimi tarixi abidələrin ətrafında müxtəlif sayda partlayıcı sursatlar aşkar edilərək zərərsizləşdirilib.

**– Minatəmizləmə sahəsində mütəxəssis hazırlığı barədə fikirləriniz də maraqlıdır…**

– ANAMA-da bu məsələyə xüsusi önəm verilir. Kadr potensialı mərhələli şəkildə gücləndirilir. Əməliyyat heyətinin



# girovluğu”ndan xilas edir

## “ölüm tələlər”inə qalib gəlirlər



Bir məqamı qeyd edim ki, partlayıcı sursatlar insan həyatı üçün olduqca təhlükəlidir. Piyada əleyhinə mina partlayışı zamanı insan ayağını itirir, sursat partlayanda insan həyatını itirir. Ermənilərin istehsal etdikləri PMN-Э minasının tərkibində 70 qrama yaxın partladıcı maddə olur. Amma sursatın içində bu, dəfələrlə çoxdur. Yaxud ermənilər müharibə zamanı kaset sursatlardan istifadə ediblər. İlk baxışdan bu, kiçik ölçülü bir sursatdır. Amma insanın əlində, hətta yanında partlaması ölümlə nəticələnir. Çünki içində çoxsaylı xırda qəlpələr var. Yəni sursat o demək deyil ki, təhlükəsizdir. Sursat da mina qədər təhlükəlidir. Buna görə də partlamamış sursatlar da mütləq zərərsizləşdirilməlidir. Sursatların təmizlənməsinin isə öz metodologiyası var. Ölümsaçan bu əşyaların ehtimal olunduğu sahələr xüsusi metodologiyaya uyğun şəkildə təmizlənir. Orada proses başqa formada gedir.

| Sahənin adı | 10 noyabr 2020-ci il– 14 iyul 2025-ci il tarixləri üzrə | |
|---|---|---|
| | Təmizlənmiş ərazi (ha) | Tapıntıların sayı (ədəd) |
| Ekoloji qiymətləndirmə | 23 027.6 | 1329 |
| Energetika | 9 285.5 | 6 506 |
| Kənd təsərrüfatı sahələri | 93 510.3 | 29 658 |
| Meliorasiya və su təsərrüfatı | 7 047.4 | 16 479 |
| Nəqliyyat infrastrukturu | 7 670.6 | 15 033 |
| Rabitə | 174.4 | 26 |
| Yaşayış infrastrukturu | 50 748.5 | 31 603 |
| Digər iqtisadi layihələr | 21 714.4 | 100 631 |
| Cəmi: | 213 178.7 ha | 201 265 ədəd |

Yaxud başqa bir fakt deyim sizə. Ötən müddətdə 243 mina hadisəsi baş verib. Bundan isə 400 nəfər müxtəlif dərəcədə zərər görüb. Bəzən elə olub ki, 4-5 nəfər eyni anda minaya düşüb. Hətta eyni maşında gedən insanların hamısı avtomobilin minaya düşməsi nəticəsində həlak olub. Məlumat üçün bildirim ki, baş vermiş 243 mina hadisənin dəqiq koordinatlarını əldə edərək xəritə üzərində yerləşdirdik və gördük ki, bu hadisələr, əsasən, keçmiş təmas xəttindən içəridə olan ərazilərdə baş verib. Bu bizim üçün məlumat bazası, qeyri-texniki tədqiqatın bir hissəsidir. Aparı-

Aparılan tədqiqatlar zamanı Qarabağda keçmiş təmas xəttinin və onun ətrafında

əksər hissəsini keçmiş məcburi köçkünlər, eləcə də Vətən müharibəsi iştirakçıları təşkil edir.

Agentliyin əməliyyat heyətinin bilik və bacarıqlarının artırılması məqsədilə heyət mütəmadi olaraq ixtisasartırma təlimlərinə cəlb edilir. Eyni zamanda, işğaldan azad olunan ərazilərdə humanitar minatəmizləmə əməliyyatlarına cəlb olunan qurumların şəxsi heyətinə agentliyin təlim heyəti tərəfindən təlim kursları keçirilir.

Humanitar minatəmizləmə fəaliyyəti Azərbaycan dövlət siyasətinin əsas prioritetlərindən biridir və ölkəmizin hərtərəfli inkişafına və rifahına ciddi təsir edir. Bu sahədə görülən işlər yalnız torpaqlarımızın təmizlənməsi ilə məhdudlaşmır, eyni zamanda, insan həyatı və təhlükəsizliyinin təmin olunmasında da böyük əhəmiyyət kəsb edir.

| İllər üzrə göstəricilər | | | | |
|---|---|---|---|---|
| İllər | Təmizlənmişdir, ha | PHS | PƏM | TƏM |
| 2020 | 605.8 | 2084 | 6088 | 2711 |
| 2021 | 20,164.7 | 21942 | 12689 | 6872 |
| 2022 | 43,915.8 | 14950 | 8780 | 4133 |
| 2023 | 53,081.6 | 23049 | 3495 | 5034 |
| 2024 | 62,023.9 | 59163 | 4286 | 2372 |
| 2025 | 33,386.9 | 20605 | 2174 | 838 |
| Cəmi | 213,178.7 | 141793 | 37512 | 21960 |

Bir məsələni də diqqətinizə çatdırım ki, biz minaya düşüb xəsarət alan əməkdaşları sonradan işə götürürük. Onları müxtəlif yardımçı işlərlə təmin edirik. Və sözsüz ki, bütün əməkdaşlarımız sığortalıdır. Agentliyin işçiləri icbari tibbi sığorta ilə yanaşı, beynəlxalq standartlara uyğun olaraq fərdi qəza və könüllü tibbi sığorta ilə də təmin olunublar.

Minatəmizləmə fəaliyyəti ağır və dəqiqlik tələb edən bir prosesdir. Minaaxtaranlar torpağı gizli düşməndən qarış-qarış təmizləyir. Həmçinin, onu da qeyd edim ki, Azərbaycan humanitar minatəmizləmə fəaliyyəti kimi çətin prosesi demək olar ki, öz resursları hesabına həyata keçirir.

**– ANAMA-nın əsas fəaliyyət sahələrindən biri də əhalinin maarifləndirilməsindən ibarətdir. Bu sahədə görülən işlər haqqında bəhs etməyinizi də istərdik...**

– Partlayıcı sursatların təhlükəsinə dair maarifləndirmə tədbirləri (PSTM) Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi tərəfindən həyata keçirilən humanitar minatəmizləmə fəaliyyətinin mühüm komponentlərindən biridir. Bu fəaliyyətlərin əsas məqsədi əhalini mina və digər partlayıcı sursatların yaratdığı real təhlükələr barədə maarifləndirmək, riskləri azaltmaq və təhlükəsiz davranış vərdişlərini formalaşdırmaqdır. Agentlik tərəfindən icra edilən PSTM fəaliyyəti ümumi maarifləndirmə, təlimçilərin təlimi formatında, icma və məktəb əsaslı maarifləndirmə istiqamətində aparılır. İşğaldan azad edilmiş ərazilərdə məskunlaşan, orada bərpa-quruculuq və digər fəaliyyətlərə cəlb edilən hər kəsə mütləq şəkildə Agentlik tərəfindən maarifləndirmə tədbirləri keçirilir, əsas təhlükəsizlik qaydaları haqda məlumat verilir, müvafiq məlumatlandırıcı çap materialları paylanılır.

Yeri gəlmişkən, bizim Elm və Təhsil Nazirliyi ilə birgə layihəmiz var. 44 günlük müharibə bitdikdən sonra dərsliklər yenidən işlənildi, yeni redaksiyada tədris vəsaitləri hazırlandı. Keçmiş təmas xətti, həmin ərazilər boyu yerləşən 10 rayonun məktəblərində tədris proqramına daxil edildi. Orda şagirdlərə mina təhlükəsizliyi dərsləri keçirilir. Layihənin məqsədi şagirdlərin mina təhlükəsi ilə bağlı yetərincə bilgilərə sahiblənməsidir. Sözsüz ki, son illər bəzi rayonlara köç olub, məktəblər açılıb. Məsələn, Cəbrayılda, Füzulidə, Zəngilanda və Laçında məktəblər fəaliyyətə başlayıb. Bu yaxınlarda Ağdamda da məktəb isifadəyə veriləcək.

Gələcəkdə qeyd edilmiş layihəni bütün ölkə boyu tətbiq etməyi planlaşdırırıq. Paytaxtdan, eləcə də digər rayonlardan işğaldan azad olunmuş ərazilərə səyahət edən, qonaq gedənlər də mina və hərbi sursatlar, onların fəsadları barədə məlumatlı olsunlar. Təəssüf hissi ilə bildirmək istəyirəm ki, bəziləri mina təhlükəsini ciddiyə almır, onlarla aparılmış izahedici, maarifləndirmə söhbətlərini, sanki, unudurlar.

**– Minatəmizləmə əməliyyatları çərçivəsində vətəndaşlara ünvanlanan çağırışınız da önəmli olardı…**

– Minatəmizləmə fəaliyyətində ictimaiyyətin dəstəyi böyük əhəmiyyətə malikdir. İşğaldan azad edilən ərazilərdə yaşayan və fəaliyyət göstərən, həmin bölgələrdə səfərdə olan insanların qaydaları diqqətdə saxlamaları onların minatəmizləmə işinə cəlb olunan dövlət qurumlarına göstərəcəkləri mühüm dəstəkdir. Düzgün davranış qaydalarına əməl etməklə təhlükəsizliyi təmin etmək mümkündür. Bir sözlə, vətəndaşlara çağırışımız sadə və aydındır: Təhlükəli ərazilərə getməyin, şübhəli əşyalara toxunmayın. Səbirli olmaq, qaydalara əməl etmək – həyatla ölüm arasındakı fərqdir. Əgər təhlükəli hallarla rastlaşarsınızsa, 805, 102 və ya 112 qaynar xətlərinə zəng edin.




Mina təhlükəsi yalnız bir torpaq parçasını təmizləməkdən ibarət deyil. Burada hər bir addım diqqət və doğru təhlil tələb edir. Azad edilmiş ərazilərdə minatəmizləmə işləri apararkən ən vacib məsələ insanların həyatını qorumaqdır, çünki hər bir mina partlayışı ölümlə nəticələnə bilər.

Beləliklə, yuxarıdakı fikirlərimi yekunlaşdırıb bir daha təkrar edirəm: Qarabağ və Şərqi Zəngəzura təhlükəsiz qayıdışın reallaşması məqsədilə fəaliyyət göstərən ANAMA vətəndaşları məsuliyyətli və sayıq olmağa, səyləri birləşdirərək işğaldan azad edilmiş ərazilərimizdə dayanıqlı və sağlam yaşayış mühiti yaratmağa çağırır.



# Azərbaycan mühacirət mətbuatı: qürbətdə istiqlal mübarizəsi

**Azərbaycan mətbuatının 150 illiyi ərəfəsində mühacir mətbuatının tanınmış tədqiqatçısı, professor Xeyrulla Məmmədovun təbirincə desək, “sahənin lokomotivi” olan filologiya elmləri doktoru Abid Tahirli ilə görüşümüz təsadüfi olmadı. O, mühacir mətbuatın əsrarəngiz dünyasını sistemli, fundamental şəkildə tədqiq edərək, bu sahədə jurnalist, alim, publisist kimi yarım əsrə yaxın fəaliyyəti ilə mühacir mətbuatşünaslığı və mühacirət ədəbiyyatşünaslığının zənginləşdirilməsinə böyük töhfə vermiş alimlərdəndir.**



Müsahibimiz mühacirət probleminə həsr olunmuş 20-dən çox kitabın, o cümlədən 12 monoqrafiyanın, ölkəmizdə və xaricdə nəşr edilən nüfuzlu jurnallarda işıq üzü görmüş 200-dən çox məqalənin müəllifidir. “Azərbaycan mühacirəti”, “Azərbaycan mühacirət mətbuatı” (2 cilddə), “Azərbaycan mühacirət mətbuatında publisistika (1921–1991)”, “Azərbaycan mühacirət mətbuatı. Məlumat-soraq kitabı”, “Sözlə yarananlar, sözü yaşadanlar”, “Mətbuat: millətin gücü, güzgüsü və dili”, “Ceyhun Hacıbəylinin həyat və yaradıcılığı”, “Məhəmməd Altunbayın həyat və yaradıcılığı”, “Abay Dağlının həyat və yaradıcılığı” və digər monoqrafiyaları sanballı əsərləri arasındadır.

Abid müəllimin araşdırma yönümünü və təcrübəsini nəzərə alaraq verəcəyimiz suallar da həm tarixi, həm analitik, həm də şəxsi yanaşmaları əhatə edir.

**– O qədər də qısa olamayan təqdimatdan sonra, buyurun Abid müəllim, sizcə, Abid Tahirli kimdir, jurnalist, publisist, mühacirət irsinin tədqiqatçısı, yoxsa...**

– Əslində, adını çəkdiyiniz peşələr və sahələr arasında Çin səddi yoxdur, əksinə biri digərinin inkişafına, formalaşmasına yardım edir. BDU-nun Jurnalistika fakültəsini (1975–1980) bitirmişəm. Əmək faliyyətimə də müxbirlikdən başlamışam. Dövrünün nüfuzlu ictimai təşkilatı olan Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyətinin həmvətənlər üçün buraxdığı “Vətənin səsi” qəzetində müxbir (1980-1987), sonra “Xaricdə Yaşayan Həmvətənlərlə Mədəni Əlaqələr Cəmiyyətinin “Vətən” Cəmiyyətinnin “Odlar yurdu” qəzetində müxbir, məsul katib və redaktor müavini (1988-1992), həmin cəmiyyətdə şöbə müdiri (1992-1993), Azərbaycan Respublikası Nazirlər Kabinetində baş məsləhətçi və dövlət qulluğunun baş müşaviri (1993-2020) kimi fəaliyyət göstərmişəm.

Hansı vəzifədə işləməyimdən asılı olmayaraq, elmə marağım heç vaxt azalmayıb. Azərbaycan mətbuat tarixində, ölkəmizin ictimai-siyasi, ədəbi-mədəni həyatında, istiqlal uğrunda mücadilədə silinməz iz buraxmış Ceyhun Hacıbəylinin həyatı və yaradıcılığı ilə bağlı namizədlik dissertasiyasını, daha sonra isə “Azərbaycan mühacirət mətbuatında publisistika (1921–1991)” üzrə doktorluq işimi uğurla müdafiə etdim. Filologiya elmləri doktoruyam.

**– Sizi mühacir mətbuatını araşdırmağa nə vadar etdi? Bu maraq necə yarandı?**

– Yuxarıda qeyd etdiyim kimi əmək fəaliyyətinə başladığım “Vətənin səsi” qəzeti xaricdə məskunlaşmağa məhkum olan soydaşlarımızın həyatına marağımı artırdı. “Vətən” Cəmiyyəti və onun orqanı olan “Odlar yurdu” qəzeti isə yaradıcılığımda və taleyimdə dönüş nöqtəsi oldu. Elmə gəlməyimin maraqlı tarixçəsi var. 1984-cü ildə atalar sözü toplayan Əbülqasım Hüseynzadə haqqında “Deyilən söz yadigardır” adlı bir kitab yazdım. Əsərlə tanış olan görkəmli alim dostum, tələbə yoldaşım, professor Məhərrəm Qasımlı mənə dedi ki, ayə, bu hazır elmi əsərdir. İş yerindən Akademiyanın Ədəbiyyat İnstituna bir məktub gətir, səni dissertant götürək. Qısa zamanda müdafiə edəcəksən. Məktub gətirmək cəhdim baş tutmadı.

Ölkəmizdə milli azadlıq hərəkatı başlayan vaxtlar idi. Onda “Vətən” cəmiyyətində işləyirdim. Ceyhun Hacıbəylinin Parisdə yaşayan oğlu Timurçin Hacıbəylidən bir məktub aldım. O yazırdı ki, atam Ceyhun Hacıbəyli XX əsrin əvvəllərində mətbuat sahəsində böyük xidmətlər göstərmiş, bir neçə qəzetin, o cümlədən AXC-nin rəsmi qəzeti “Azərbaycan”ın redaktoru olmuşdu. O vaxta kimi, siz də daxil jurnalistika fakültəsinin bitirsək də, Ceyhun Hacıbəylinin adını belə eşitməmişdik. Ceyhun Hacıbəylinin izinə düşdüm, yolumu arxiv və kitabxanalara saldım, o zaman Parisdə YUNESKO-da çalışan görkəmli diplomat Ramiz Abutalıbovla yazışmağa başladım. Demək olar ki, hər gün heyrətamiz və maraqlı faktlarla rastlaşırdım.

Məlum oldu ki, Ceyhun bəy XX əsrin əvvəllərində buraxılan “İrşad”, “Proqres”, “Tərəqqi”, “Kaspi”, “Baku” kimi qəzetlərlərlə sıx əməkdaşlıq etmiş, həmin mətbu orqanlara müxtəlif mövzularda məqalə, felyeton və hekayələr yazmış, “İttihad”, “Kaspi”nin əlavəsi “İzvestiya”, “Azərbaycan” qəzetinin redaktoru olub. Araşdırma zamanı üzə çıxardıq ki, C.Hacıbəyli müxtəlif imzalarla təkcə “Kaspi” qəzetində 250-dək məqalə dərc etdirmişdir.

Elmi-tədqiqat işi məni sanki ovsunlamış, həyatımın ayrılmaz hissəsinə çevrilmişdi. Tiflisdə, Ankarada, İstanbulda kitabxana, arxiv və muzeylərdə, Belçika, Hollandiya, İsveç, İran, Almaniya və digər ölkələrdə mühacir mətbuatı və ədəbiyyatı nümunələri, onların yaradıcılarının bədii, publisistik irsi, həyat və idealları ilə tanış olduqca araşdırmaların əhatəsini genişləndirir, qarşıma qoyduğum məqsədə çatmaq üçün daha ciddi, daha məsulliyyətlə, daha həvəslə çalışırdım.

**– Mühacir mətbuatı dedikdə konkret olaraq hansı nəşrlər və dövrlər nəzərdə tutulur?**

– Mühacir mətbuatı dedikdə, Azərbaycan siyasi mühacirətinin xaricdə nəşr etdiyi qəzet, jurnal, bülleten və digər yazılı informasiya vasitələri nəzərdə tutulur. Bu mətbuat orqanları əsasən Azərbaycan Xalq Cümhuriyyətinin (1918–1920) süqutundan sonra sovet işğalını qəbul etməyərək xaricə köç edən görkəmli dövlət xadimləri, açıq fikirli, azadlıqsevər ziyalılar və jurnalistlər tərəfindən yaradılmışdır. Mühacirlər əsasən Türkiyə, Almaniya, Fransa, Polşa, ABŞ və digər Avropa ölkələrində məskunlaşmış və orada sovet rejiminə, kommunist ideologiyasına qarşı Azərbaycanın istiqlalı uğrunda ideoloji mücadilə aparmışlar.



Mühacir mətbuatı bir ideya, məram, bir proqram – “Azərbaycan davası” birləşdirsə də, mövzu, dil, üslub, sənətkarlıq, nəşr yeri baxımından 20-30-cu illər, Böyük Vətən müharibəsi, 50-60-cı illər və 1980-1991-ci illər dövrü bir-birindən fərqlənir. 20-30-cu illərdə Türkiyədə “Yeni Qafqasiya”, “Azəri-Türk”, “Yaşıl yarpaq”, “Odlu yurd”. “Bildiriş”, “Azərbaycan yurd bilgisi”, Avropada “Azərbaycan”, “İstiqlal”, “Qurtuluş”, eləcə də hərəsi bir-iki nömrə olmaqla nəşr edilən “Milli Azərbaycan Müsavat Xalq Firqəsi” bülleteni , “Açıq söz”, “Kutlu od”, “Aydın yol”, “Doğru söz” , “Vətən diləyi” , “Milli atəş” , “Millət andı” “İlham qaynağı”, “Müqəddəs Odlar ölkəsi” , “Haqqın səsi”, “Dilək,“Haqq”, “Həmlə”, Böyük Vətən müharivəsi dövründə – 1942-ci ildə işıq üzü görən “Türk amacı”, legionerlərin “Azərbaycan”, “Hücum”, “Milli Birlik”, 5–-60-cı illərdə Türkiyədə “Azərbaycan”, “Türk izi”, “Türk yolu”, “Mücahid”, Avropada buraxılan “Azərbaycan”, həmçinin 1980-ci illərin ikinci yarısından sonra “Ana dili” (Bonn), “Odlar ölkəsi” (Edinburq), “Dədə Qorqud” (İspaniya), “Qürbət” (Brüssel), “Aydınlıq” (London), “Azərbaycan türkləri”, “Xəzər” (İstanbul), “Azərbaycan” (Stokholm), “Azərbaycan” (Vaşinqton), “Araz” (Lund, İsveç), “Azər” (Berlin), “Savalan” (Berlin), “Ərk” (Almaniya) və s. kimi dövrü nəşrlərimühacir mətbu orqanlarını cəsarətlə istiqlal uğrunda mücadilənin, işğala qarışı mübarizənin salnaməsi adlandırmaq olar.

Yuxarıda sadaladığımız qəzet və jurnallardan əlavə soydaşlarımızın digər Sovet mühacirləri ilə ortaq nəşrləri - 1930-1950-ci illərdə Parisdə buraxılan “Prometey”, “Kafkaz”, Münhendə nəşr olunan “Kafkasya”, “Birləşik Kafkasya”, “Dərgi” və s. jurnallar da Stalin rejiminə və kommunist ideologiyasına qarşı amansız mücadilə aparmışlar.

**– Bir tədqiqatçı kimi mühacir mətbuatının Azərbaycan mətbuat tarixindəki rolu və əhəmiyyəti haqqında nə deyərdiniz?**

– Mühacir mətbuatı Azərbaycan mətbuat tarixində xüsusi və əvəzsiz bir mərhələdir. Onun rolu və əhəmiyyəti bir neçə əsas istiqamətdə özünü göstərir. Mühacir mətbuat vasitəsilə Azərbaycanın müstəqillik idealını qorudular və gələcək nəsillərə ötürdülər. Bu mətbuat senzurasının olmadığı yeganə platforma idi ki, orada milli ideologiya sərbəst şəkildə ifadə olunur, Sovet imperiyasına qarı sərt mübarizə aparır, onun antibəşəri mahiyyətini açır, ifşa edir, perspektivsizliyini göstərir, Mirzə Bala Məhəmmədzadənin sözləri ilə desək, “imperiyanı silkələyirdi”.

Milli şüurun və kimliyin qorunmasında bu nəşrlərin yeri çox böyükdür. Mühacir nəşrləri milli tarixə, mədəniyyətə, ədəbiyyata və dilə böyük önəm verirdi. Onlar Azərbaycan xalqının keçmişini, mənəvi dəyərlərini və milli kimliyini yad mühitdə belə yaşatmağı bacardılar. Bu fəaliyyət milli yaddaşın itməsinin qarşısını aldı.

Mühacir jurnalistlər və yazarlar yalnız siyasi yox, həm də elmi, ədəbi və fəlsəfi mövzularda yazılar dərc edirdilər. Onların məqsədi cəmiyyətin düşüncə səviyyəsini yüksəltmək, oxucunu maarifləndirmək və müstəqil düşüncəyə təşviq etmək idi. Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması bu mətbuatın önəmli işi oldu, Azərbaycanla bağlı məlumatları beynəlxalq ictimaiyyətə çatdırmaqda da mühüm rol oynadı. Onlar sovet təbliğatının qarşısında alternativ bir informasiya mənbəyi yaratmağa çalışırdılar. Bu, Azərbaycanın işğal olunmuş bir ölkə kimi tanınmasında mühüm əhəmiyyət daşıyırdı.

Daha mühüm bir vəzifə Azərbaycan mətbuat ənənələrinin davam etdirilməsi ilə bağlıdır. Mühacir jurnalistlər rişəsini Həsən bəyin “Əkinçi”sindən alan, Cümhuriyyət dövründə (1918–1920) formalaşan demokratik mətbuat ənənələrini qürbətdə də davam etdirdilər. Bu, azərbaycanlı jurnalistlərin müstəqil düşüncə, söz azadlığı və peşəkar yanaşma kimi dəyərləri yaşatdıqları bir məktəb oldu.

**– Cümhuriyyətin süqutundan sonra xaricdə intişar edən mühacir mətbuatının əsas məqsədi nə idi – informasiya yaymaq, ideoloji mübarizə aparmaq, yoxsa mühacirləri birləşdirmək?**

– Bildiyiniz kimi, hər bir mətbu orqan birinci nömrəsində özünün proqramını dərc, bəyan etməklə fəaliyyətə başlayır. Bu dövrdə mühacir mətbuatının əsas məqsədi təkcə informasiya yaymaq deyil, daha geniş və strateji bir missiyanı — ideoloji mübarizə aparmaq və milli birliyi qorumaq idi. Onların fəaliyyəti bir neçə məqsəd ətrafında cəmləşirdi və bu məqsədlər bir-biri ilə çox sıx bağlı idi. Əsas və prioritet məqsəd Sovet Rusiyasının işğalını qəbul etməmək və Azərbaycanın müstəqilliyini beynəlxalq aləmdə müdafiə etmək idi. Mühacir mühərrirlər mətbuat vasitəsilə anti-sovet ideyaları yayır, totalitar rejimi ifşa edir və Azərbaycan Xalq Cümhuriyyətinin ideallarını yaymağa, yaşatmağa çalışırdılar.

Xaricdə məskunlaşan azərbaycanlıları milli məqsədlər ətrafında birləşdirmək, onların kimlik şüurunu itirməməsinə kömək etmək mətbuatın əsas vəzifələri sırasındadır. Mühacir publisistlər həm də maarifçilik missiyası daşıyırdılar. Onlar tarix, ədəbiyyat, siyasət və mədəniyyət mövzularında yazılar dərc edərək həm cəmiyyəti məlumatlandırır, həm də ictimai fikri formalaşdırırdılar.

**– Tədqiqatlarınız zamanı sizi təsirləndirən faktlar, məqamlar olubmu?**

– Mühacirət irsi mühacir həyatının güzgüsüdür. O güzgüyə haradan baxsan, sizi riqqətə gətirən, təsirləndirən məqamlarla üz-üzə qalacaqsınız: gah sevinəcək, gah kədərlənəcək, gah da dərin düçüncələrə dalacaqsınız. Məhəmməd Əmin Rəsulzadənin “Qəzetəçi Seyyid”, Mirzə Balanın “Vətən qaldı”, Məhəmməd Sadıq Aranın “İstiqlal mücadiləsindən bir vaqiə”, Fuad Əmircanın “İntiqam alan kölgə”, Ceyhun Hacıbəylinin “Bir millətin namusu” kimi istiqlal qəhrəmanlarını vəsf edən, sarsılmaz mücahid obrazlarının əks olunduğu xatirə və hekayələrini iftixar, qürur hissi keçirməmək, eyni zamanda, öldürülən, sürülən, edam edilən, təhdid və təqibə məruz qalan vətən övladlarının, soydaşlarımızın acı, ağır taleyini göz önünə gətirdikcə kədərlənməmək olarmı?

Almas İldırımın “Qara dastan”, “Əsir Azərbaycanım", "Krımda axşamlar", “Bir gün gələcək"; Gültəkinin “Azərbaycan istiqlalı”, “Bolşevik”; Kərim Yaycılının "Hürriyyət yolçuları", "Gəl, sevgilim, qaçalım", "Şəhid teğmən", "İstiqlal uğrunda”, "Araza"; Alazan Baycanın “Dilin qurusun”, “Ana dili”; Teymur Atəşlinin "Biz yenə gələcəyik", "Bir gün gələcək", "Ağlama" və s. kimi Azərbaycan sevdalı, vətən həsrətli, qürbətin ağrı-acısından şikayətlənən, istiqlal və hürriyyəti tərənnüm edən, tarixi şəxsiyyətlərə ithaf etdikləri şeirləri həyəcansız, göz yaşısız oxumaq olarmı?!

Əhməd bəy Ağaoğlunun “67 il” sonra memuarından”, yaxud onun Malta məktublarından təsirlənməmək mümkündürmü? Baninin həyatı və avtobioqrafik əsərləri ilə tanış olan hər kəs ömrü boyu onları unudarmı?! Bayıl həbsxanasında dünyaya göz açan Teymur Atəşli, İran zindanlarında min bir işgəncəyə məruz qalan Almas İldırım, Məhəmməd Altunbay... haqqında sənədlərlə üz-üzə qalanda necə həyəcanlanmayasan, necə dəhşətə gəlməyəsən? Ceyhun Hacıbəylinin vəfatından üç gün əvvəl – 1962-ci ilin 19 oktyabrında yazdığı və Azərbaycan Xalq Cümhuriyyətinin sonuncu daxili işlər naziri Mustafa Vəkiloğluna ünvanladığı məktubla tanışlıq həm düşündürür, həm də mütəəssir edir. Ölümün bir addımlığında olan Ceyhun bəy əski silahdaşına mücadiləni davam etdirmək üçün mühacirləri birləşdirməyi vəsiyyət edir! Legionerlərin lideri Əbdürrəhman Fətəlibəyli Düdənginskinin sovet xəfiyyəsi tərəfindən Münhendə öz mənzilində qətlə yetirilməsi faktı ilə rastlaşanda gözlərin necə hədəqəsindən çıxmasın!

Mühacirlərin istiqlala inamı, işıqlı istiqbala ümidi heyrətamizdir. Sovet işğalının ilk günündən mühacirlər ən dözülməz, ağır vəziyyətlərində belə “bu rejim çökəcək, bolşevizm məhvə məhkumdur, Azərbaycan gec-tez istiqlalına qovuşacadır” – demişlər, yazmışlar. 1975-ci ildə – Sovet imperiyasının dünyaya meydan oxuduğu vaxt Hüseyn Baykara qələmə aldığı “Azərbaycan istiqlal mücadiləsi tarixi” kitabına yazdığı “Ön söz”də deyirdi ki, “Çevrədə bulunan yaxın və uzaq dostlardan, bu kitabı yazdığıma görə məni qınayanlar vardı: Yəni, sən kiminlə zarafat edirsən. Bax, ABŞ başkanı Ford Vladivosloka Brejnevi ziyarətə gedir”. Mən isə onlara belə cavab verirdim: “Tarixin qəribə cilvələri və sürprizləri var. Sabahın tarixi də çox sürprizli olacaq. Bu kitab Azərbaycanın istiqlal davasının bir əlifbasıdır”.

Yaxud Nağı Şeyxzamanlı 1964-cü ildə qələmə aldığı “Azərbaycan istiqlal mücadiləsi xatirələri” kitabında yazırdı ki, bütün müqəddəratıma inandığım kimi, ona da inanıram ki, nə rus, nə də qurulacaq bu və ya digər rejim Azərbaycanda əsaslı uyğunlaşmayacaq və yaşamayacaqdır. Demək istədiyimiz odur ki, Sovet imperiyasının çökəcəyi, yerində müstəqil dövlətlərin, o cümlədən Azərbaycan Respublikasının qurulacağı barədə istiqlal aşiqlərinin böyük inamla söylədiyi fikirlərin tarixi ötən əsrin 20-ci illərindən başlanır.

M.Ə.Rəsulzadə, M.B.Məhəmmədzadə, C.Hacıbəyli, Fuad Daryal, Mir Yaqub Mehdiyev və digər mücahidlərin məqalələrində Azərbaycanın istiqlalına inam əsas xətt kimi keçir və bununla bağlı mənbələrə rast gəldikdə heyranlığını gizləyə bilmirsən. Əlbəttə, bu cür misalların sayını artırmaq olar. Sualınızı bir cümlə ilə isə belə cavablandırmaq olar: mühacirət mətbuatı başdan-başa qürurlandıran, düşündürən, səfərbər edən, təəccübləndirən, kədərləndirən, təssüfləndirən zəngin, dəyərli mədəni, ədəbi, publisistik mənbədir.

**– Tədqiqatınız zamanı hansı arxiv və ya mənbələr sizin üçün əsas istinad nöqtələri olub? Onlara çıxış imkanları necə idi?**

– Bu sual dərdimizi tərpətdi. Nə qədər ağır olsa da deməliyik ki, əski mühacirlər dünyasını dəyişmişlər, “Azərbaycan davasını” yürüdənlərin ardıcılları və övladları soydaşlarımıza məxsus sənədləri müxtəlif səbəblər ucbatından ya şəxsi arxivlərində müəyyən müddət saxlamış, ya kimlərəsə bağışlamış, yaxud satmışlar. Azərbaycanın YUNESKO-dakı nümayəndəsi fədakar və peşəkar diplomat Ramiz Abutalıbov hələ Sovet hakimiyyətinin süqutu ərəfəsində Parisdəki həmvətənlərimizə aid çoxsaylı arxiv sənədlərini min bir əziyyətlə də olsa ölkəmizə gətirə bilmiş, Milli Arxiv İdarəsinə təmənnasız təqdim etmişdir.

Professor Nəsiman Yaqublu da Polşadan, Türkiyədən mühacirət irsi ilə əlaqəli xeyli sənədi Milli Arxiv İdarəsinə vermişdir. Ruhları şad olsun. 2014-cü ildə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Azərbaycan mühacirət şöbəsi yaradıldıqdan sonra mühacirət irsi ardıcıl və sistemli, yüksək peşəkarlıqla araşdırılmağa başlanılmışdır. Nikpur Cabbarlı, Aysel Əfəndiyeva, Hülya Cəbiyeva Türkiyədən çox qiymətli mühacir bəlgələri gətirmişlər. Təvazökarlıqdan uzaq olmasın, mən Əhməd bəy Ağaoğlunun arxivini, çox sayda mühacir mətbuatı və ədəbiyyatı nümunələrini gətirməyə müvəffəq olmuşam.

Dəyərli tədqiqatçı Əli Şamil soydaşlarımıza məxsus bir sıra sənədləri ölkəmizə gətirmişdir. Hazırda bu istiqamətdə – mühacirlərə aid sənədlərin toplanılmasında, təqdiqində Dilqəm Əhməd çox fəaldır. Əlbəttə, Vaqif Sultanlı, Bədirxan Əhmədov, Asif Rüstəmli kimi tədqiqatçıların əməyini də yüksək dəyərləndirmək lazımdır. Bütün bunlarla yanaşı xaricdə itib-batmaqda olan külli miqdarda mühacir irsi nümunələrinin olduğu da şübhə doğurmur.

Heç uzağa getməyək. Ötən əsrin 80-90-cı illərində mühacirətdə buraxılan “Ana dili” (Bonn), “Odlar ölkəsi” (Edin-burq), “Dədə Qorqud” (İspaniya), “Qürbət” (Brüssel), “Aydınlıq” (London), “Azərbaycan türkləri”, “Xəzər” (İstanbul), “Azərbaycan” (Stokholm), “Azərbaycan” (Vaşinqton), “Araz” (Lund, İsveç), “Azər” (Berlin), “Savalan” (Berlin), “Ərk” (Almaniya) və s. bu kimi dövrü nəşrlərin dəstləri kimdə, yaxud hansı arxivdə, kitabxanada var? Onları çıraqla axtarırıq. 50-60 ildən sonra gec olacaq, onların izi-tozu da qalmayacaq.

O ki, qaldı mənim işlədiyim arxiv, kitabxana, muzeylərə, ölkəmizdə və xaricdə onların sayı çoxdur, Gürcüstan, Rusiya, Türkiyə, müxtəlif Avropa ölkələrində ezamiyyətdə, yaxud şəxsi səfərlərim zamanı mühacirət mətbuatı və ədəbiyyatı nümunələrini toplamaq əsas işim olmuşdur. Bu mənbələrə çıxış bəzən asan, bəzən isə çətin olmuşdur. Mənbələri əldə etmək imkanları müxtəlif səviyyədə olsa da, səbr və sistemli yanaşma ilə bu sahədə yetərli və etibarlı informasiya toplamaq mümkündür.

**– Azərbaycan mətbuatının 150 illiyi fonunda mühacir mətbuatının hansı aspektlərinə daha çox diqqət yetirilməlidir?**

– Azərbaycan mətbuatının 150 illiyi kontekstində mühacir mətbuatının bir çox mühüm aspektlərinə diqqət yetirilməsi vacibdir. Bu yolla mühacirət mətbuatının proqram və missiyası, ideya-istiqaməti, toxunduğu mövzular, əsərlərin janrı, dili, üslubu, sənətkarlıq məsələləri, naşir və redaktorları, əməkdaşları haqqında, mötəbər məlumatlar əldə etmək, müvafiq elmi-nəzəri qənaətlərə gəlmək mümkündür. Mühacir mətbuatı Azərbaycan Xalq Cümhuriyyətinin, istiqlal uğrunda mücadilə tarixinin, mühacirlərin həyat və yaradıcılığını yaşadan etibarlı ensiklopediyadır.

**– Sizcə, müasir jurnalistlər mühacir sələflərindən nələri öyrənə bilər?**

– İlk növbədə, Vətənə sədaqətlə, tükənməyən məhəbbət və təmannasız xidmət etməyi, milli istiqlala dəyər verməyi, ədalətin, həqiqətin keşiyində ayıq-sayıq durmağı, hadisələri qərəzsiz, real və obyektiv işıqlandırmağı. Hər cür saxtakarlıqdan, yaltaqlıqdan, yalandan, əyrilikdən uzaq olmaq. Bu peşə dözüm, iradə, cəsarət, düzgünlük, geniş bilik, ağır, gecəli-gündüzlü zəhmət tələb edir.

Mühacir mətbuatı yalnız informasiya vasitəsi olmamışdır, publisitlər bu tribunada istiqlal ideallarını, xalqımızın tarixini, ədəbi, mədəni dəyərlərini təbliğ etmək üçün ustalıqla istifadə etmişlər.

Mühacir jurnalistlər azad dünyada yaşasalar da, daim Sovet kəşfiyyatının təzyiqi, təqibi altında olmuşlar. Təsadüfü deyil ki, onlar izi itirmək üçün gizli imzalar altında fəaliyyət göstəriblər. Bununla belə, onlar öz fikirlərini ifadə etməkdən bəzisi nəinki gizli imza ilə yazmış, hətta adını, soyadını dəyişmişlər. Bugünkü qələm sahibləri dərindən dərk etməlidirlər ki, jurnalistikanın əsas məqsədlərindən biri cəmiyyəti təkcə məlumatlandırmaq deyil, həm də düşündürmək, səfərbər etmək, problem ətrafında ictimai rəyi formalaşdırmaqdır.

Ümumiyyətlə, mühacir jurnalistlərin fəaliyyəti müasir jurnalistlər üçün yalnız tarixi maraq deyil, həm də dəyərlərin, prinsiplərin və peşə borcunun örnəyidir. Onların yolunu araşdırmaq və öyrənmək, jurnalistikanın mahiyyətinə daha dərindən nüfuz etməyə kömək edir.

**– Dediklərinizdən belə bir qənaətə gəldim ki, bundan sonra da mühacir mətbuatı ilə bağlı görüləsi işlər kifayət qədər çoxdur...**

– Əlbəttə. Hələ arxivlərdə, muzeylərdə şəxsi kitabxanalarda “yol gözləyən” çox sayda maraqlı mühacir irsi nümunələri var. Məni təqdimatınızda səxavətlə “çox böyük işlər görmüş bir tədqiqatçı” kimi dəyərləndirdiyiniz üçün təşəkkür edirəm, təvazökarlıqdan uzaq olsa da, Xalq yazıçıları Elçin, Anar, akademiklər Yaşar Qarayev, Bəkir Nəbiyev, İsa Həbibbəyli, Nizami Cəfərov, Tehran Əlişanoğlu, professorlardan Xeyrulla Məmmədov, Nizaməddin Şəmsizadə, Şamil Vəliyev, Cahangir Məmmədli, Nizami Tağısoy, Rüstəm Kamal, Yədulla Ağazadə, Məhərrəm Qasımlı, Asif Rüstəmli, Qərənfil Quliyeva, Hüseyn Əhmədov, Alxan Bayramov, Vaqif Arzumanlı, Həsən Quliyev, Xaləddin İbrahimli, Nazif Qəhrəmanlı, Qulu Məhərrəmli, dosentlərdən Bayram Ağayev, Mənzər İbrahimova, Ramin Əhmədov, Türkiyədən Əli Yavuz Akpınar, Alattin Karaca, Səbahəddin Şimşir, İrfan Murat Yıldırım, Ömər Özcan, Almaniyadan Umud Mehmandarlı və başqalarının araşdırmalarımla bağlı yüksək fikir və rəylərini, məqalələrini minnətdarlıqla qeyd edirəm. Bununla belə etiraf etməliyəm ki, bu sahədə görüləsi işlər düşündüyümüzdən də çoxdur. Azərbaycan mühacir mətbuatının tədqiqi ötən əsrin sonlarından etibarən diqqət mərkəzinə çəkilsə də, bu istiqamətdə hələ də tam şəkildə araşdırılmamış sahələr qalmaqdadır.

**– Növbəti planlarınız barədə nə deyə bilərsiniz?**

– Mühacirət irsində tanınmış imzalardan, istiqlal mücahidi, Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri, indiki Dövlət Təhlükəsizliyi Xidmətinin sələfi Əksinqilab ilə Mübarizə Təşkilatının (ƏMT) rəhbəri Nağı Saleh oğlu Şeyxzamanlının (1883, Gəncə − 1967, İstanbul) həyat və yaradıcılığı haqqında monoqrafiyam çap ərəfəsindədir. Mühacir ədəbiyyatında imzalar mövzusunda araşdırma üzərində işləyir, mühacirət mətbuatı istiqamətində təqdiqatlarımı davam etdirirəm.

**– Maraqlı mühasibəyə görə sağ olun.**

*Söhbəti apardı:*
***Namiq QƏDİMOĞLU***
***XQ***

# "Bizim həyət" layihəsinin yeni ünvanı



**İyulun 17-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın iştirakı ilə Bakı şəhəri, Suraxanı rayonu, Yeni Günəşli "AB" yaşayış sahəsində yerləşən çoxmərtəbəli binaları əhatə edən, 3500-dən çox sakinin yaşadığı həyət abadlaşdırılaraq sakinlərin istifadəsinə verilib.**

Həyətdə bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli təşkili və onlarda idmana marağın artırılması məqsədilə ərazidə süni örtüklü futbol meydançası, şahmat meydançası, müxtəlif idman qurğuları, uşaqlar üçün oyun sahəsi salınıb. Eyni zamanda, həyətyanı sahədə söhbətgahlar, çoxsaylı oturacaqlar, quş yuvaları və pişik evləri quraşdırılıb. Həyətdə yeni işıqlandırma dirəkləri, müşahidə kameraları yerləşdirilib, binaların fasad və blokları tam təmir olunub, asfalt və dam örtüyü, elektrik xətləri yenilənib.

Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, müxtəlif növ yeni ağaclar və mövsümi güllər, eləcə də kol bitkiləri əkilərək yaşıllıq zolağı salınıb. Bununla yanaşı, həyətin ətrafında sıx bitən, havanın çirklənməsinin qarşısını almaq məqsədilə adi daşsarmaşığı və digər sarmaşan bitkilər əkilərək "yaşıl sədlər" yaradılıb.

Qeyd edək ki, IDEA İctimai Birliyi həyətlərin abadlaşdırılması və yenidənqurma işlərinin aparılması istiqamətində sakinlərin təklif və müraciətlərini İctimai Birliyə təqdim etməyə çağırır. Müraciətlərinizi IDEA İctimai Birliyinin "qaynar xətt"i "1113" və ya e-mail ünvanına (info@ideacampaign.org) göndərməyiniz xahiş olunur.

# 2025-ci ilin Həsən bəy Zərdabi mükafatçıları



**Azərbaycan Jurnalistlər Birliyinin katibliyi ölkə mətbuatında, teleradioda, eləcə də, elektron mediada çalışan və peşəkarlıqları ilə seçilən bir qrup jurnalisti 2025 - ci il üçün Həsən bəy Zərdabi mükafatı ilə təltif edib.**

AZTV-nin əməkdaşı, tanınmış idman jurnalisti Aydın Əliyev Azərbaycan idmanının təbliği və inkişafındakı xidmətlərinə, Vüqar Abbasov (Niderland Krallığı) Azərbaycanın beynəlxalq aləmdə tanıdılmasına həsr olunmuş məqalələrinə, Oksana Vəliyeva (CBC) müəllif proqramlarına, Eltən Qədimbəyli (Qafqaz.TV) region televiziyalarının inkişafına verdiyi töhvələrə, jurnalist Ramella İbrahimxəlilova kriminal mövzuda məqalələrinə, AMEA Elektron İnformasiya sektorunun müdiri Nərgiz Qəhrəmanova ölkə elminin inkişafı istiqamətində əldə olunan nailiyyətlərin ictimaiyyətə çatdırılmasındakı fəaliyyətinə, hərbi jurnalist Seymur Kazımov müharibə gedən bölgələrdən hazırladığı reportajlara, jurnalist Ramilə Qurbanlı "Gizlədilmiş tarix" silsilə yazılarına görə Həsən bəy Zərdabi mükafatları ilə təltif ediliblər.

Mükafata layiq görülənlər arasında, mətbuat və ictimaiyyətlə əlaqələrin qurulmasında fəaliyyətinə görə Enerji Məsələlərini Tənzimləmə Agentliyinin mətbuat katibi Zeynab Kazımova, ümummilli lider Heydər Əliyevə, Xocalı Soyqırımına və Vətən Müharibəsinə həsr olunmuş televiziya lahihələrinə görə Cəmilə Çebotaryova (Yeni çağ Media Qrupu), publisistikasına görə jurnalist Fuad Biləsuvarlı, Zamanın hökmü ilə talelərinə xarici ölkələrdə yaşamaq qisməti düşmüş Azərbaycanın tarixi şəxsiyyətlərinin varisləri ilə müsahibələrinə görə jurnalist Hafiz Əhmədov, uzun illər mətbuata verdiyi töhvələrə görə Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzinin İctimaiyyətlə əlaqələr və Kommunikasiya şöbəsinin müdiri Mətin Məcidli, ölkənin ictimai-siyasi həyatının mühüm istiqamətlərini işıqlandıran yazılarına görə "Demokrat.az" saytının rəhbəri Vasif Həsənli və vətənpərvərlik mövzusunda yazılarına görə jurnalist Nəzakət Əhmədova da vardır.

Tədbir bu gün saat 14.00-da AJB-nin konfrans zalında (Bülbül pr. 30) keçiriləcək.

*XQ*

# Qusarda taxıl biçini

## *Rayon fermerləri dövlətin qayğısından razılıq edirlər*





**Qusarda indi yay-tarla işlərinin qızğın çağıdır. Rayonda hazırda dağətəyi kəndlərin taxıl zəmiləri biçilir. Qeyd edək ki, 2024-cü ildə Qusarda, ümumilikdə 56 min 622 ton taxıl məhsulu əldə olunub. Cari ildə isə məhsuldarlıq ötən illə müqayisədə daha yüksək qiymətləndirilir.**

Dünən Qusar Dövlət Aqrar İnkişaf Agentliyinin (DAİM) rəisi Rauf Minhacov ilə telefonla əlaqə saxladıq. Həmsöhbətim məlumat verdi ki, 2025-ci ilin biçin mövsümünün başlanmasından 15 iyul tarixinədək olan dövr ərzində rayon üzrə 4650 hektar buğda və 8790 hektar arpa sahəsində biçin aparılıb. Bu sahələrdən, ümumilikdə, 38903,4 ton məhsul toplanıb. R.Minhacovun sözlərinə görə, rayonda taxıl biçini kampaniyası fasiləsiz rejimdə davam etdirilir və bu günədək hər hansı texniki nasazlıq və ya gözlənilməz hal qeydə alınmayıb.

Qusarla telefon bağlantısı zamanı o da məlum oldu ki, Qusar Rayon İcra Hakimiyyətinin başçısı Sahir Məmmədxanov dünən rayon ərazisində əkin sahələrinə baxış keçirib, sahibkarlar, mexanizatorlar və kənd təsərrüfatı mütəxəssisləri ilə görüşüb. RİH başçısı əvvəlcə taxıl sahələrində davam edən biçin prosesini izləyib, texniki təminat və məhsuldarlıqla bağlı vəziyyətlə maraqlanıb. Görülən işlər barədə müvafiq struktur rəhbərlərinin məlumatları dinlənilib.

Daha sonra S.Məmmədxanov tərəvəz əkinlərinin vəziyyəti ilə yerində tanış olub. Qeyd olunub ki, 2025-ci ildə rayonda 3793 hektar sahədə tərəvəz əkini aparılıb. Bu göstərici 2024-cü illə müqayisədə 108 hektar çoxdur. Bu il sahələrdən artıq 3 min tona yaxınməhsul toplanıb və yığım kampaniyası hazırda uğurla davam edir. Fermerlər bildiriblər ki, bu il məhsuldarlıq qənaətbəxşdir, xüsusilə pomidor, kartof və brokkoli kələmi sahələrində məhsulun həm məhsuldarlığı, həm də keyfiyyəti yüksək qiymətləndirilir. Bu nəticəyə əsasən, suvarma sistemlərinin təkmilləşdirilməsi və xəstəliklərə qarşı qabaqlayıcı tədbirlərin düzgün planlaşdırılması mühüm rol oynayıb.

Görüş zamanı sahibkarlar, torpaq istifadəçiləri və aqronomların təklif və müraciətləri dinlənilib.

Sahir Məmmədxanov kənd sakinləri ilə görüş zamanı ölkə rəhbərliyinin kənd təsərrüfatına göstərdiyi ardıcıl diqqət və dəstəyin son illərdə Qusar rayonunda da bu sahədə ciddi inkişaf dinamikası yaratdığını bildirib, fermerləri dövlətin təqdim etdiyi subsidiya proqramları, texnika təminatı və digər dəstək mexanizmlərindən daha fəal və məqsədyönlü şəkildə istifadə etməyə çağırıb. Bildirib ki, rayon rəhbərliyi aqrar sektorun inkişafını bundan sonra da prioritet istiqamətlərdən biri kimi diqqət mərkəzində saxlayacaq.

Sonda qeyd olunub ki, kənd təsərrüfatı sahələrinin davamlı inkişafı təkcə ərzaq təhlükəsizliyinin təmin olunması baxımından deyil, eyni zamanda rayonun sosial-iqtisadi inkişafı və əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi üçün də strateji əhəmiyyətə malikdir. Bu səbəbdən bu sahəyə dövlət dəstəyi və nəzarəti qarşıdakı illərdə də sistemli şəkildə davam etdiriləcəkdir.

*MA BDULLAYEV*
*XQ*

Yeni kitablar

# "Jurnalist ömrünün əbədiyyət nəğməsi"




**Milli jurnalistikamızın 150 illik yubileyinin ölkəmizdə ümumxalq təntəntənələri ilə qeyd edildiyi günlərdə şəhid jurnalst Məhərrəm İbrahimovun xatirəsi də ehtiramla yad edilib. Dünən Azərbaycan Mətbuat Şurasında AZƏRTAC-ın Kəlbəcərdə xidməti vəzifəsini yerinə yetirərkən mina qəzasına düşmüş əməkdaşına həsr olunmuş "Jurnalist ömrünün əbədiyyət nəğməsi" kitabının təqdimat mərasimi keçirilib.**

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, deputatlar Vüqar Rəhimzadə, Rizvan Nəbiyev, Azər Allahverənov, Pərvin Kərimzadə, Nigar Məmmədova uzun müddət cəbhə bölgəsinə ezamiyyətlərə gedən, təmas xəttində mətbuat nümayəndələri üçün təşkil olunan təlimlərdə iştirak edən, 44 günlük müharibə zamanı ən qaynar nöqtələrdən xəbərlər, reportajlar hazırlayan Məhərrəm İbrahimovun peşəkar hərbi jurnalist kimi fəaliyyətindən bəhs edib, bu sahədə onun göstərdiyi fədakarlıqdan danışıblar.




Diqqətə çatdırılıb ki, kitabda Vətən müharibəsində qazanılan Zəfərdən sonra Ermənistanın müharibə cinayətləri, mülki əhalini hədəfə alması, işğaldan azad edilmiş ərazilərdə erməni faşistlərinin viran qoyduğu qədim yurd yerlərinin dəhşətli mənzərəsi barədə mərhum jurnalistin birbaşa hadisə yerindən hazırladığı materiallar, informasiyalar da yer alıb və bunlar çox dolğun təsir bağışlayır.

Azərbaycan Jurnalistlər Birliyinin sədri Elçin Şıxlı, Mətbuat Şurasının sədr müavini Səadət Məmmədova, Medianın İnkişafı Agentliyinin İcraçı direktorunun müavini Natiq Məmmədli, "Real TV"-nin rəhbəri Mirşahin Ağayev, Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin dekanı Vüqar Ziferoğlu, Əməkdar jurnalist Elşad Eyvazlı, AZƏRTAC-ın əməkdaşı Süleyman Qaradağlı erməni qəddarlığının və mina terrorunun geniş ictimaiyyətə çatdırılması, hərbi jurnalistika üzrə ixtisaslaşan tələbə və gənclərin formalaşması sahəsində kitabın oynayacağı müsbət roldan bəhs ediblər.

Məhərrəmin həmyerliləri adından çıxış edən professorlar Məcid Məsimov, Məhəmməd Kərimov və başqaları qeyd ediblər ki, ölümündən sonra "Vətənə xidmətə görə" medalı ilə təltif ediliş Məhərrəm İbrahimov bu dünyaya cəmi 39 il yaşasa da, tömrü əbədiyyət yoluna qovuşdu. Lakin onun ömür nəğməsi tanıyanların qəlbində daim ehtiramla səslənəcək.

Sonda kitabın müəllifi, şəhid-jurnalistin qardaşı Əsgər İbrahimov iştirakçılara qədirbilənliyə və dəyərli sözlərə görə minnətdarlığını bildirib.

*T.RÜSTƏMLİ*
*XQ*

# Vaşinqtonun 50 günlük ticarət ultimatumu

## *ABŞ-ın yeni sanksiya təhdidləri Rusiyanın tərəfdaşlarını seçim qarşısında qoyur*

Vaşinqtonun ticarət siyasətində sərtləşmə tendensiyası Rusiya ilə iqtisadi əməkdaşlıq edən dövlətlər üçün ciddi risklər yaradır. ABŞ prezidenti Donald Trampın Rusiyanın enerji məhsullarını alan ölkələrə qarşı 100 faiz dəyərində ikinci dərəcəli gömrük rüsumları tətbiq edəcəyi barədə verdiyi 50 günlük ultimatum, artıq beynəlxalq gündəmin əsas mövzularından birinə çevrilib.




Bu çətin balans axtarışı fonunda NATO-nun baş katibi Mark Rütte də məsələyə sərt reaksiya verib. O, dünyadakı əsas Rusiya tərəfdaşlarına, xüsusən də Çinə, Hindistana və Braziliyaya açıq şəkildə çağırış edib: "Əgər siz Rusiyadan hələ də enerji alırsınızsa, o zaman Vladimir Putinlə danışın və ona deyin ki, sülh danışıqlarına ciddi yanaşmalıdır".

Cənab Rütte prezident Trampın planlarını dəstəkləyərək, Rusiyanın dost dövlətlərinə qarşı mümkün gömrük rüsumlarının "psixoloji təsir vasitəsi" olacağını və Qərbin mövqeyini gücləndirəcəyini bildirib. O vurğulayıb ki, bu təşəbbüs Qərbin Ukraynaya dəstəyini gücləndirməyə yönəlib və Avropa ilə ABŞ arasında strateji həmrəyliyi nümayiş etdirir.

Pekinin mövqeyi birmənalı olub – Çin rəhbərliyi Trampın sanksiya təhdidlərini qınayıb və Moskvaya "daha dərin dəstək" vəd edib. Hindistan isə daha çətin mövqedədir. Vaşinqtonla yeni ticarət razılaşmasına yaxın olan Dehli, bir tərəfdən ABŞ-la münasibətləri pozmaq istəmir, digər tərəfdən isə Rusiyadan neft idxalından asılı vəziyyətdə qalır. Hindistan hazırda gündəlik 2 milyon barrelə yaxın Rusiya nefti idxal edir və bu həcmi qısa müddətdə başqa mənbələrlə əvəzləmək praktiki olaraq mümkün deyil.

Analitiklər hesab edirlər ki, Donald Trampın bu cür kəskin sanksiyaları tətbiq etməsi Vaşinqton üçün də arzuolunmaz nəticələr doğura bilər. Belə ki, Çinə və Hindistana təzyiq dünya neft bazarında qiymət artımına səbəb olacaq və bu, nəticə etibarilə ABŞ daxilində inflyasiyanın artmasına gətirib çıxara bilər. Bu isə cənab Trampın prezident seçkiləri öncəsi reytinqinə mənfi təsir edə bilər.

Bundan başqa, "Bloomberg" agentliyi isə yazır ki, Trampın planlaşdırdığı 100 faizlik gömrük rüsumları nəinki Rusiyanın tərəfdaşlarını çətin vəziyyətə salacaq, həm də ABŞ-ın Çin və Hindistanla münasibətlərində yeni gərginlik mərhələsinə səbəb ola bilər. Agentliyin məlumatına görə, Hindistandakı bəzi hökumət rəsmiləri bu ssenarinin reallaşmasının "idarəolunmaz nəticələrə" səbəb ola biləcəyindən ehtiyatlanır.

*Səbuhi MƏMMƏDOV*
*XQ*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 146 (30840) 18 iyul 2025-ci il, cümə

# İDMAN

## Boksçumuz Avropada gümüş medal qazanıb




**Azərbaycanın daha bir boksçusu Serbiyanın Novi Pazar şəhərində yeniyetmələr arasında keçirilən Avropa birinciliyində medal qazanıb. Belə ki, Səfdər Məmmədzadə (+80 kq) finalda rusiyalı Boqdan Smolkin ilə "döyüşüb". Görüş rəqibin 3:2 hesablı qələbəsi ilə yekunlaşdığından boksçumuz gümüş medalla kifayətlənib.**

Bununla da yığmamız Avropa birinciliyini 1 qızıl, 4 gümüş və 8 bürünc medalla başa vurub. Milli bu göstərici ilə komanda hesabında 3-cü yeri tutub.

Qeyd edək ki, daha öncə Əminə Tağı (50 kq) Avropa çempionu tituluna yiyələnib. Cəmilə Muradlı (52 kq), Fidan Bakarova (63 kq), Səma Abbasova (66 kq) gümüş, Qardaş Rəhimov (46 kq), Məhəmməd Rəsulov (50 kq), Raul Heydərli (54 kq), Şahin Aslanov (60 kq), Haqverdi Həsənov (63 kq), Aylin Nəzərova (46 kq), Gülər Hüseynova (48 kq) və Zəhra Məmmədova (54 kq) bürünc medal qazanıblar.

## Gənc cüdoçularımızı Avropa sınağı gözləyir



**XVIII Avropa Gənclər Yay Olimpiya Festivalında (EYOF) iştirak edəcək cüdoçularla görüş keçirilib. Görüşdə Azərbaycan Cüdo Federasiyasının (ACF) icraçı vitse-prezidenti Rəşad Rəsullu, ACF prezidentin müşaviri Natiq Bağırov və yığmaların məşqçi heyəti iştirak ediblər.**

Federasiya rəsmiləri idmançılara olan etimadı ifadə edərək, qarşıdan gələn mötəbər turnirdə uğurlu çıxış gözlədiklərini bildiriblər. Qeyd edək ki, EYOF çərçivəsində cüdo yarışları iyulun 22–26-sı aralığında Şimali Makedoniyanın paytaxtı Skopyedə keçiriləcək.

İdman festivalında Azərbaycanı 12 çəki dərəcəsində 12 cüdoçu (6 oğlan, 6 qız) təmsil edəcək. Yığma turnirin son günündə qarışıq komanda yarışında mübarizə aparacaq.

## "Qarabağ"ın rəqibi bəllidir



**"Qarabağ"ın UEFA Çempionlar Liqasının II təsnifat mərhələsindəki rəqibi müəyyənləşib. Bu, İrlandiya təmsilçisi "Şelburn"dur.**

I təsnifat mərhələsi çərçivəsində doğma meydanda Şimali İrlandiyanın "Linfild" kollektivinə 1:0 hesabı ilə qalib gələn "Şelburn", səfərdə 1:1 hesablı heç-heçəyə razılaşaraq növbəti raundda Ağdam təmsilçisinə rəqib olub.

Qeyd edək ki, qitənin ən nüfuzlu klub turnirində II təsnifat mərhələsinin ilk görüşləri iyulun 22-23-də, cavab qarşılaşmaları 29-30-da baş tutacaq.

*M.HACIXANLI*
*XQ*

# Sağlamlıq

## Yayın sağlam, təhlükəsiz qidalanması

**Qidalanma insan orqanizminin inkişafını və normal həyat fəaliyyətini təmin edən əsas amildir. Müxtəlif tərkibli qida məhsulları kimyəvi və bioloji cəhətdən kompleks birləşmələrdən ibarətdir. Zülal, yağ, karbohidrat, vitamin və mineral kimi əsas maddələrlə zəngin olan keyfiyyətli qidalar immun sistemini gücləndirir, yoluxucu və toksik təsirli maddələrə qarşı müqaviməti artırır.**

Lakin yay aylarında havanın yüksək temperaturu və gigiyenik qaydalara əməl olunmaması qida məhsullarının tez xarab olmasına, nəticədə qida zəhərlənmələri və infeksiyaların yayılmasına səbəb olur. Kənd təsərrüfatında meyvə-tərəvəzlərin becərilməsi zamanı pestisidlərin həddindən artıq istifadəsi, evdə və ictimai iaşə müəssisələrində ərzaqların düzgün saxlanmaması da zərərli təsirlərə yol aça bilər. Belə hallarda xroniki və kəskin intoksikasiyalar baş verir.



Yayda isti hava şəraiti maddələr mübadiləsini sürətləndirir, bədəndə su və elektrolit itkisi artır. Nəticədə halsızlıq, başgicəllənmə və həzm pozğunluqları müşahidə oluna bilər. Bu dövrdə düzgün qidalanmamaq, gigiyenik qaydalara əməl etməmək sağlamlıq üçün ciddi risklər yaradır.

İsti hava mikroorqanizmlərin – xüsusilə salmonella, bağırsaq çöpləri, kampilobakter və stafilokokların sürətlə çoxalması üçün əlverişli mühit yaradır. Bu bakteriyalar ishal, qarın ağrısı, qusma və qızdırma kimi əlamətlərlə müşayiət olunan bağırsaq infeksiyalarına səbəb olur. Ət, süd, yumurta,



mayonez və salatlar kimi tez xarab olan məhsullar düzgün saxlanmadıqda təhlükə daha da artır.

Yay aylarında bədəndə su və duz itkisi çoxaldığından gündə azı 2–2,5 litr və bəzi hallarda əmək şəraitindən asılı olaraq daha çox su qəbul olunmalıdır. Şirin, qazlı içkilərdən və alkoqollu içkilərdən uzaq durmaq məsləhətdir, çünki onlar əks təsir göstərərək orqanizmdə daha da susuzluq yarada bilir.

Küçə şəraitində, xüsusilə günəş altında satılan qidalar yüksək risk daşıyır. Bu məhsulların sanitar-gigiyenik tələblərə cavab verməməsi infeksiyalara yol aça bilər. Dönər, dondurma, təzə meyvə şirələri və hazır salatlar kimi məhsulları qəbul edərkən xüsusilə diqqətli olmaq vacibdir.

İsti havalarda yağlı, qızardılmış, yüksək kalorili yeməklərdən uzaq durmaq, yüngül və sərinləşdirici qidalara – tərəvəz, meyvə, yoqurt, kefir, ayran kimi məhsullara üstünlük vermək lazımdır. Xörəklərin günün sərin saatlarında qəbul olunması daha məqsədəuyğundur.

Qidalanma zamanı bu tövsiyələrə əməl etməklə sağlamlığınızı qoruya bilərsiniz:

– Hazır qidaları soyuducuda saxlayın və maksimum 2 saat ərzində istehlak edin.

– Küçədə satılan gigiyenik şəraiti şübhəli məhsullardan uzaq durun.

– Minerallarla zəngin, bol vitaminli təbii məhsullara üstünlük verin.

– Meyvə və tərəvəzləri təzə və təmiz şəkildə istifadə edin.

– Dondurma və oxşar məhsulları yalnız etibarlı istehsalçılardan alın.

– Əllərinizi tez-tez sabunla yuyun və ya antiseptiklərdən istifadə edin.

Yay aylarında təhlükəli qidalanma vərdişlərindən uzaq durmaq, gigiyenik qaydalara ciddi əməl etmək, sərin və balanslı rasion seçmək sağlamlığın qorunmasında əsas rol oynayır. Unutmayaq: Sağlam qidalanma – sağlam həyatın təməlidir!

***Fəridə ƏLİ,***
***ATU-nun kafedra müdiri, dosent***

# Hava

## Abşeronda yağmursuz, günəşli, isti hava...



**Milli Hidrometeorologiya Xidmətindən mətbuata verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraiti yağmursuz olacaq. Mülayim şimal-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 21-26, gündüz 33-37 dərəcə isti olacaq. Nisbi rütubət gecə 70-75, gündüz 45-50 faiz təşkil edəcək.**

Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi proqnozlaşdırılır. Arabir duman gözlənilir. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 22-26, gündüz 36-41, dağlarda gecə 11-16, gündüz 27-32 dərəcə isti olacaq.

*XQ*

## "Günəbaxan"a necə baxmalı?



**Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutunun təşkilatçılığı ilə "Günəbaxan bitkisinin becərilməsində yeni texnologiyaların tətbiqi" mövzusunda elmi-praktik tarla seminarı keçirilib.**

Seminarda Aqrar Xidmətlər Agentliyinin nümayəndələri, Samux, Goranboy və Göygöl rayonlarının dövlət aqrar inkişaf mərkəzlərinin, eləcə də Bitki Mühafizəsi və Fumiqasiya (Zərərsizləşdirmə) mərkəzlərinin və digər müvafiq qurumların rəhbərləri, mütəxəssisləri, fermerlər və institut əməkdaşları iştirak ediblər.



AMEA-nın müxbir üzvü, professor İbrahim Cəfərov günəbaxan bitkisinin ölkə üçün strateji əhəmiyyətini qeyd edərək, onun becərilməsində elmi yanaşmanın və seleksiya təcrübələrinin əhəmiyyətindən danışıb. Aqrar elmlər doktoru Ələddin Tağıyev introduksiya olunmuş sortların biomorfoloji xüsusiyyətləri və seleksiya üçün ilkin material kimi qiymətləndirilməsi ilə bağlı fikirlərini bölüşüb.

Tarla şəraitində keçirilən seminar zamanı iştirakçılara günəbaxan bitkisinin becərmə texnologiyası, torpaq hazırlığı, gübrələmə, suvarma və məhsul yığımına dair müasir metodlar barədə praktiki izahlar verilib.

Seminarın sonunda iştirakçılar sahəyə baxış keçirərək tətbiq olunan texnologiyaları yerində müşahidə edib, təcrübə mübadiləsi aparıblar.

*XQ*

"Bakı ofset kombinatı" ASC səhmdarlarının nəzərinə!

"Bakı ofset kombinatı" ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı 22 avqust 2025-ci il saat 10.00-da cəmiyyətin yerləşdiyi ünvanda keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyi:

1. Səhmdar cəmiyyətinin nizamnaməsinə əlavələrin və dəyişikliklərin edilməsi.
2. Müşahidə şurasının, icra orqanının və təftiş müfəttişinin yenidən seçilməsi.
3. Digər məsələlər.

Səhmdarlar gündəlikdəki məsələlərə aid sənədlərlə tanış olmaq üçün hər həftənin I-V-günləri saat 10.00-dan 13.00-dək cəmiyyətə gəlməklə tanış ola bilərlər.

Əlaqə telefonu-050-209-29-15.

Ünvan- Bakı şəhəri, Nəsimi rayonu, Asif Məhərrəmov küçəsi 4.

*İdarə heyəti*

***✓ 2024-cü ilin oktyabr ayında Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan Dövlət Dəniz və Liman Agentliyi tərəfindən Qurbanov Elnur Xaqani oğlunun adına verilmiş Gəminin Mühafizəsi üzrə Ümumi Hazırlıq və A-VI \6,6-8 nömrəli Təlimat Sertifikatı itdiyi üçün etibarsız sayılır.***

***✓ 2022-ci il sentyabrın 22-də Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin mənzilin imtiyazlı şəxsə təhvil verilməsi aktı itdiyi üçün etibarsız sayılır. Ünvan-Bakı şəhəri,Sabunçu rayonu, Məmməd Araz küçəsi, bina 4, mənzil 41.***

**BAŞ REDAKTOR**

**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3246
SİFARİŞ 1644
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU
Çapa imzalanmışdır 00:00